www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6 fevral 2017-ci il Bazar ertəsi № 26 (6640) Qiymətı 60 qəpik

**Xəbər**

**Bakıda sürücü yol təmizləyən qadını öldürüb qaçdı**

yazısı səh.14-də

**Gündəm**

**Şəhid əsgərimizin nəşi Azərbaycanda - 40 mərasimi ilə üst-üstə düşən qayıdış...**



Çingiz Qurbanovun cəsədi 39 gün sonra erməni girovluğundan qurtuldu; hərbi ekspert: "Onun ölümü Azərbaycan üçün bir örnək olmalıdır"

yazısı səh.3-də

**Bakıda oğurlandığı deyilən polis əməkdaşı haqda yeni xəbər**

yazısı səh.4-də

**Ermənilər girov götürdükləri azərbaycanlıya qarşı məhkəmə şousu hazırlayır**

yazısı səh.3-də

**Rusiyaya qarşı sanksiyaların götürülməsi manata da təsir edə bilər - iqtisadçı ekspert**

yazısı səh.4-də

**Qarabağ ixtilafı - hərblə sülh arasında...**

yazısı səh.11-də

**Səddam Hüseyn və Qəzzafi öldürülməsəydi... İŞİD olmazdı?**

yazısı səh.12-də

**Cərrahlar üçün yaş senzi olmalıdırmı - iki baxış**

yazısı səh.14-də

**Dərmanlar ərzaqdan da sürətlə bahalaşır - əməkdaşımızın paytaxt apteklərindən qeydləri**

yazısı səh.10-da

**Dünyanın sonu panikası yenidən başladı - zənginlər "Qiyamət günü"nə hazırlaşır**

yazısı səh.15-də

**Müxbirimiz Azərbaycan Cümhuriyyəti ilə həmyaşıd Avropa dövlətinin paytaxtından yazır**

yazısı səh.13-də

## Azərbaycan Qərbə "yumşaq inteqrasiya" xəttini seçir

# BAKI və BRÜSSEL ANLAŞMA ƏRƏFƏSİNDƏ - PREZİDENTİN KRİTİK AVROPA SƏFƏRİ

Gürcüstana viza rejiminin ləğvinin ardınca Avropa Birliyi Azərbaycana diqqəti artırıb; ikitərəfli münasibətlərdə daha yüksək mərhələyə keçid sürətlənir; Bakı və Tiflisin Rusiya təsirindən daha da uzaqlaşması Kremlin Güney Qafqaz siyasətini sərtləşdirə bilər...




yazısı səh.8-də

# Eldar Mahmudovun eyvanının altında öldürülən general

Komandanı kim və niyə aradan götürdü; müdafiə nazirinin sabiq müavini Rail Rzayevin qətlinin 8 ildir qapalı qalmasının sirri...

yazısı səh.5-də



**Lapşin məsələsi yekunlaşır - bu gün Azərbaycana verilir**

yazısı səh.9-da



Fəzail İbrahimli

**Tarixçi alimdən deputat həmkarına sərt reaksiya**

yazısı səh.7-də



**Müxalif partiya sədri Siyavuş Novruzovu dəstəklədi**

yazısı səh.6-da

**6 fevral 2017**

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017

# Lavrov Qarabağ məsələsində ATƏT-in fəal iştirakına ümid edir



## Azərbaycanı xaricdə layiqincə təmsil edən musiqiçilər

**Azərbaycanın istedadlı sənətkarları çoxdur. Lakin onların arasında Azərbaycan musiqisini peşəkarcasına həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda, dünya səhnələrində layiqincə təmsil edib, xarici tamaşaçıları məftun edə bilən sənətkar sayılı qədərdir. "Yeni Müsavat" onlardan bir neçəsini təqdim edir.**

Bu cür sənətkarlardan biri, bəlkə də ən birincisi dünya şöhrətli muğam ustadı Alim Qasımovdur. Ustad xanəndə təkrarsız dəst-xətti ilə dünyanın əksər ölkələrində çıxış edərək muğamı xaricilərə sevdirib, bu sənətə məftun edib.

Azərbaycanı xaricdə layiqincə təmsil edən sənətkarlardan biri də cazmen, əməkdar artist Şahin Növrəslidir. Qeyd edək ki, ifaçı Azərbaycanda çox az sayda konsertlər versə də mütəmadi olaraq Avropa ölkələrində, xüsusən də Fransada konsert proqramı ilə çıxış edir. İfaçı Azərbaycan muğamının melodiyaları ilə ənənəvi caz ritmlərini sintez edərək öz musiqisində Şərq və Qərb mədəniyyətlərini birləşdirir. O, Keni Viler, Uday Mazumdar, Alison Miler, Neytn Pek, Aleks Pek və başqa tanınmış musiqiçilərlə birlikdə çıxış edib, albomlar yazdırıb. Bu günlərdə ifaçının yenidən Fransada konsert proqramı ilə çıxış edəcəyi barədə məlumat yayılıb.

Azərbaycanın ilk cazmeni Vaqif Musatafazadənin qızı Əzizə Mustafazadə də xaricdə ölkəmizi təmsil edən məşhur ifaçılardandır. İfaçı artıq uzun müddətdir ki, anası ilə birlikdə Almaniyada yaşayır. Bütün dünyada tanınan xanım sənətçi "Always" ("Həmişə") albomuna görə yüksək alman musiqi mükafatı sayılan Səs-Akademiyası Mükafatı və Soninin Exo Mükafatına layiq görülüb. İfaçı hazırda da fəaliyyətini davam etdirərək bir çox ölkədə caz və ənənəvi üslublarda gözəl nümunələr ifa edir, yeni albomlar üzərində çalışır.

Azərbaycanı dünyada tanıdan digər məşhur ifaçılar sırasında pianoçu, bəstəkar, cazmen İsfar Sarabskinin da adı var. Qeyd edək ki, 21 yaşında əməkdar artist adına layiq görülən gənc ifaçı öz triosu ilə birlikdə Amerika və Avropanın bir çox festivallarında və konsertlərində çıxış edib. O, dünya şöhrətli Royal Philharmonic Concert Orchestra ( Kral Filarmonik konsert orkestri), Oleq Lundstremin orkestri ilə bərabər, İgor Butman, Ben Williams, Mark Guiliana, Alan Hampton, Pat Senatore, Greg Swiller, Erik Klass, Christian Veber, Samuel Rohrer, Malcolm Creese, James Maddren kimi musiqiçilərlə də birlikdə çıxışlar edib.

❑ Xalidə GƏRAY



## Bakıda 12 dərəcə isti olacaq

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu, əsasən yağmursuz olacağı proqnozlaşdırılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, bəzi yerlərdə zəif duman olacaq, şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun gecə 0-3° isti, gündüz 7-12° isti, Bakıda gecə 1-3° isti, gündüz 10-12° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 767 mm civə sütunundan 764 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 50-60 % təşkil edəcək. Azərbaycanın rayonlarına gəlincə, fevralın 6-da hava şəraitinin əsasən yağmursuz olacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq, qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 7-12° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacağı gözlənilir.

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov Avstriyanın "Profil" jurnalına müsahibəsində ATƏT-in bundan sonra da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqlar prosesinə kömək edəcəyinə ümid bəslədiyini bildirib.**

AzərTAC xəbər verir ki, nazir deyib: "Ümid edirik ki, ATƏT bundan sonra da Dnestryanıda, habelə Dağlıq Qarabağda vəziyyətin nizama salınmasına dair danışıqlar prosesində fəal iştirak edəcək. Bu, ötən il Dağlıq Qarabağda vəziyyətin gərginləşməsi fonunda xüsusilə vacibdir. Biz Cənubi Qafqazla bağlı Cenevrə müzakirələrinin konstruktiv şəkildə davam edəcəyinə də ümid bəsləyirik".



Nazir hazırda ATƏT-ə sədrlik edən Avstriyanın təşkilatın əhatə etdiyi məkanda münaqişələrin həllinə daha çox diqqət yetirəcəyinə ümid ifadə edib. Onun fikrincə, bu, ilk növbədə, Ukrayna böhranına aiddir. Sergey Lavrov vurğulayıb ki, Rusiya öz tərəfindən qarşıya qoyulan vəzifələrin uğurlu həllinə kömək edəcək.



## Azərbaycan qızılın ən böyük satıcıları arasında

**Ötən il ərzində dünyada qızıla tələbat 2% artıb və 4,3 min tonu ötüb. Əsas tələbat fərdi və institusional investorlar tərəfindən təqdim olunub. Virtualaz.org bildirir ki, bu barədə "Kommersant" nəşri yazıb.**

Nəşr qeyd edir ki, qızıla tələbat öz milli valyutalarının məzənnəsini saxlamaq üçün ehtiyatlarını satmağa məcbur olan bir sıra ölkələrin mərkəzi bankları tərəfindən qismən hamarlanmışdı. Qiymətli metalın ən böyük satıcıları keçən il Azərbaycanın, Venesuelanın, Argentinanın və İordaniyanın mərkəzi bankları olub. Alıcı qismində isə əsasən Rusiyanın, Çinin və Qazaxıstanın mərkəzi bankları çıxış ediblər.

Nəşr onu da vurğulayır ki, əvvəlki dörd ildə mərkəzi banklar tərəfindən qızıla ümumi tələbat təxminən 600 ton civarında olub. Ancaq 2016-cı ildə 384 tona qədər azalıb və altı il ərzində minimal həddə düşüb. Ümumiyyətlə, ötən il zərgərlik sənayesi üçün son yeddi il ərzində ən pis il olub.

## Azərbaycan Çin və Avstraliyanın təcrübəsini öyrənəcək



**Yanvarın 30-da keçirilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan prezidenti İlham Əliyev yun istehsalının, tədarükünün və ixracının artırılmasını vəzifə olaraq müəyyənləşdirib, bu il ən azı 10 tədarük məntəqəsinin yaradılmasını tapşırıb.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, dövlət başçısının tapşırıqlarının icrası məqsədilə bu gün Yevlaxda İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərliyi ilə yun sahəsi üzrə mütəxəssislərlə işgüzar müzakirə keçirilib. Tədbirdə yun istehsalının genişləndirilməsi, tədarük sisteminin qurulması, yunun ilkin emalı fabrikinin yaradılması, yunun daxili və xarici bazarlarda satışının təşkili kimi məsələlər müzakirə olunub.

Müzakirələrin nəticəsi olaraq, xammal bazasının araşdırılması, tədarük sisteminin modelinin seçilməsi, bu sahəyə özəl sektorun cəlb edilməsi və təşviq mexanizmlərinin tətbiqi, yun istehsalı və emalı sahəsində Çin, Avstraliya, Qazaxıstan və digər ölkələrin təcrübəsinin, texniki spesifikasiya və sertifikatlaşdırma sisteminin öyrənilməsi qərara alınıb. İşgüzar müzakirələrdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov da iştirak ediblər. Sonra Yevlax İlkin Yun Emalı Fabrikinin ərazisinə baxış keçirilib.

"Qaya Mətbuat Yayımı" MMC!

- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## Türkiyədə terror aktı törətməyə hazırlaşan İŞİD şəbəkəsi ələ keçdi

**Türkiyə hüquq-mühafizə orqanları İŞİD terror təşkilatının ölkədəki gizli şəbəkəsinə qarşı genişmiqyaslı əməliyyat keçiriblər. APA-nın verdiyi məlumata görə, səhər saatlarında Ankara, İstanbul, Bursa və İzmir başda olmaqla, bir çox şəhər və rayonlarda eyni vaxtda əməliyyat başlayıb.**

Polisin keçirdiyi əməliyyat nəticəsində Ankarada 60, İstanbulda 18, Bursada 46 İŞİD üzvü olmaqda şübhəli sayılan şəxs saxlanılıb. Konyada 75 nəfərin saxlanılması barədə qərar var. Saxlanılan şəxslərin terror aktı törətməyə hazırlaşdıqları bildirilir. Saxlanılanlardan 10-u uşaq olmaqla, 14 nəfər xarici ölkə vətəndaşıdır.

## Trampa növbəti zərbə Apelyasiya Məhkəməsindən gəldi

**ABŞ-da Apelyasiya Məhkəməsi Tramp hakimiyyətinin 7 ölkəyə tətbiq etdiyi viza qadağasının davam etdirilməsi ilə bağlı tələbini rədd edib. Musavat.com Türkiyə mətbuatına istinadən xəbər verir ki, məhkəmə bu qadağanın dayandırılması ilə bağlı qərarın yerində verildiyini iddia edərək, Tramp hakimiyyətinin bu qadağanın yenidən tətbiqi ilə bağlı tələbinin yersiz olduğunu bildirib.**

Ədliyyə Nazirliyi isə Apelyasiya Məhkəməsinin hökmünə bazar ertəsi gününə qədər cavab vermək hüququna malikdir.

Xatırladaq ki, nazirlik Vaşinqton ştatı, Sietl şəhərinin federal hakiminin Trampın 7 müsəlman ölkəsinə tətbiq etdiyi viza və ölkəyə giriş qadağasını təxirə salan qərarı ilə bağlı apelyasiya şikayəti vermişdi. Hakim Robartın cümə günü verdiyi qərar hakimiyyət düşərgəsində də etirazla qarşılanmışdı. Ağ Ev yazılı açıqlama ilə qərarı tənqid edərkən şənbə ertəsi Tramp Tvitter hesabı vasitəsilə bu olayı "gülünc" adlandırmışdı.

❑ SEVİNC

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017


Çingiz Qurbanov

# Şəhid əsgərimizin nəşi Azərbaycanda - 40 mərasimi ilə üst-üstə düşən qayıdış...

## Çingiz Qurbanovun cəsədi 39 gün sonra erməni girovluğundan qurtuldu; **hərbi ekspert:** "Onun ölümü Azərbaycan üçün bir örnək olmalıdır"

**Ötən il dekabrın 29-da şəhid olan və meyiti ermənilər tərəfindən ələ keçirilən Azərbaycan ordusunun əsgəri Qurbanov Çingiz Salman oğlunun nəşi dünən geri qaytarılıb. Ölümünün 40-cı günündə şəhid əsgərimiz torpağa tapşırılacaq.**

Musavat.com Müdafiə Nazirliyinə istinadən bildirir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin səyi nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən təxribatının qarşısını alarkən 2016-cı ilin dekabr ayının 29-da şəhid olmuş əsgər Qurbanov Çingiz Salman oğlunun nəşi geri qaytarılıb. Nazirlik tərəfindən həyata keçirilən müvafiq tədbirlər, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kasprşik və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə hərbi qulluqçumuzun meyitinin geri alınması prosesi Qazax rayonunun Bala Cəfərli kəndi istiqamətində baş tutub. Şəhid Ç.Qurbanovun cənazəsi qarşı tərəfdən qəbul edildikdən sonra hərbi ehtiram qaydalarına uyğun olaraq fəxri qarovulun müşayiəti ilə Bakı şəhərinə yola salınıb.

BQXK Ç.Qurbanovun meyitinin qaytarılması ilə bağlı məlumat yayıb. BQXK-dan verilən məlumata görə, təhvilvermə beynəlxalq sərhəddə - Ermənistanın İcevan və Azərbaycanın Qazax şəhərləri arasındakı yolda baş tutub. 29 dekabr 2016-cı ildə beynəlxalq sərhəddə baş verən hadisədən dərhal sonra BQXK, əsgərin nəşinin qaytarılması üçün öz neytral vasitəçi xidmətlərini təklif edib.

Şəhid əsgərimiz doğulduğu doğma torpaqda - Qusarda dəfn olunacaq. Bu barədə onun atası Qurbanov Salman "Qafqazinfo"ya açıqlamasında məlumat verib.

Qeyd edək ki, əsgərimizin cəsədinin düşmən tərəfdə qalmasından bu günə qədər keçən müddətdə beynəlxalq qurumların, xüsusilə, ATƏT-in Minsk Qrupunun, Beynəlxalq Qırmızı Xaç Komitəsinin məsələ ilə bağlı biganə mövqeləri haqlı olaraq, Azərbaycan cəmiyyətinin dərin hiddətinə səbəb oldu. Təsadüfi deyil ki, bu qurumların indiyə qədər bir dəfə də olsun, nəşin geri qaytarılması üçün ciddi bir bəyanatlarının şahidi olmadıq. Bütün bunlar şəhidimizin meyitinin geri qaytarılması ilə də tənqidlərin səngiməsinə səbəb olmayıb.

Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a açıqlamasında bunları dedi: "Çingiz Qurbanov Vətən qarşısında borcunu şərəflə yerinə yetirdi və ən ali zirvəyə yüksəldi. Yerdə qalan işlər sağ olan insanlarımızın üzərinə düşür. Bədnam qonşularımız insanlıqdan kənar, insanlığa yaraşmayan formada dünyasını dəyişmiş insana belə bir münasibət sərgilədilər. İllər keçəcək, onun adı xalqımızın yaddaşından heç zaman çıxmayacaq. Çünki o, Vətən uğrunda canını fəda etdi. Bu hər kəsə nəsib olmayan zirvədir. Amma istər-istəməz qəlbimizdə daim narahatçılıq qalacaq ki, biz onu adət-ənənələrə uyğun şəkildə son mənzilə yola sala bilmədik. Düşmən onun cansız bədəni üzərində də alver qurdu. 40 gün az vaxt deyil. Ermənilərin özləri görünür ölülərinə belə hörmət qoymurlar. Azərbaycan əsgərinin meyitini belə bizə vermədilər və bəhanələri də bu oldu ki, istintaq gedir. Bu istintaqla nəyi araşdırırdılar? Guya orada Çingiz Qurbanovla bağlı nə var idi ki, onu araşdırırdılar? Bu sadəcə, bəhanə idi. Bəhanənin fonunda beynəlxalq qurumların dişsizliyi, gücsüzlüyü özünü açıq göstərdi. Onlar sübut etdilər ki, heç nəyə qadir deyillər. Öz ölümü ilə şəhidimiz bir sıra mətləblərə aydınlıq gətirdi ki, beynəlxalq qurumlara ümidli olmayaq. Onlar heç nəyi həll edə bilməyəcəklər. Çingiz öz ölümü ilə ailəsinin başını uca elədi. Ali təhsilli bir övladımız Vətən üçün canını qurban verdi. Azərbaycana və dünyaya ermənilərin iç üzünü bir daha açdı. Ermənilər əsgərimizin meyitindən belə qorxduqlarını sübut etdilər. Bundan sonra üzərimizə nə düşəcəyi barədə düşünmək lazımdır. Onun adını əbədiləşdirmək haqda düşünməliyik. Onun valideynlərinə təskinlik üçün vacib olanları etmək lazımdır. Bir şeyi deyim. Düzdür Çingizin qardaşı var. Amma bundan sonra ön xətə əsgərlər yerləşdirərkən tək oğul olmasını, yaxud onun Azərbaycana gələcəkdə nə verə biləcəyini nəzərə almalıyıq. Fikirlərimi heç kəs başqa istiqamətə çəkməsin. Başa düşürəm, bu məsələni biz qabardanda hörmətli millət vəkilləri, bəzi qurumların nümayəndələri xorla bir ağızdan başlayırlar ki, Vətənin müdafiəsi anlayışı harada qaldı. Bu anlayışı mən də yaxşı anlayıram. Amma gəlin baxaq görək Çingiz sağ qalsaydı, ölkəmizə hansı faydaları, xeyri gətirə bilərdi. Cəmi şəhidlərimizə Allah rəhmət eləsin. Amma biz də çalışmalıyıq ki, belə savadlı, gələcəyi olan insanlarımızı qoruyaq".





Hərbi ekspert beynəlxalq qurumları sərt şəkildə qınadı: "Beynəlxalq qurumlar heç bir fəaliyyət göstərmədi. Çingiz çox mətləblərə aydınlıq gətirdi. Ola bilərdi ki, ölümündən iki gün sonra geri qaytarılardı. Bunu beynəlxalq qurumlar öz uğurları kimi qələmə verərdilər. Amma məsələnin bu qədər yubanması onların nə qədər aciz olduqlarını ortaya qoydu. Çingiz Qurbanovun ölümü Azərbaycan üçün bir örnək olmalıdır. Düşmənimizi daha yaxından tanımalıyıq. Bundan sonra düşmən cəsədi əlimizə keçərsə, ermənilərin etdiklərini təkrarlamamalıyıq. Yəqin ki belə də olacaq. Ölkəmizə ermənilər kimi hansısa cılız bəhanə lazım deyil. Beynəlxalq qurumlar utanmalı və xalqımızdan üzr istəməlidirlər. Əsl simalarını ortaya qoydular. Gözləyirəm ki, onlar cəsarət tapıb xalqımızdan üzr istəyəcəklər - erməni gədası Sərkisyan və onun ətrafının qarşısında aciz olduqları barədə. Bir cəsədi ermənidən geri ala bilmirlərsə, üzüsulu getməlidirlər".

Ü.Cəfərov beynəlxalq qurumlarla bağlı Azərbaycan tərəfin konkret ortaya mövqe qoymasının zamanının gəldiyini də qeyd etdi: "ATƏT sədrinin bu günləri açıqlaması oldu. Bir tərəfdən deyir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün səylərimizi davam etdirməliyik. İkinci tərəfdən də Qarabağ münaqişəsinin mümkünsüzlüyü barədə danışır. Biz bəzən həddindən artıq yumşaq siyasət yürüdürük. Onların əksəriyyəti avara yığnağıdır. Böyük pulları eyş-işrət və başqa məqsədlər üçün xərcləyirlər. Baxın görün, neçəsi korrupsiya və digər məsələlərdə ilişiblər. Azərbaycan artıq beynəlxalq qurumlarla sərt davranmalı, bu cür də danışmalıdır. Münasibət konkretləşdirilməlidir. Qarşılarına zaman qoymalıyıq. Son günlər bəzi dostlarımız qeyri-ciddi açıqlamalar verirlər. Deyirlər, fevralın axırında hücuma keçəcəyik, martda digər şeyləri edəcəyik. Nəyisə etsək də, kimsəyə hesabat vermədən bunu etməliyik".

❑ **Cavanşir ABBASLI**


Elnur Hüseynzadə

# Ermənilər girov götürdükləri azərbaycanlıya qarşı "məhkəmə" şousu hazırlayır

**Fevralın 1-də müəmmalı şəkildə Talış kəndi istiqamətində ermənilərin əlinə keçmiş Azərbaycan vətəndaşı Elnur Hüseynzadə Dağlıq Qarabağdakı separatçı rejim tərəfindən mühakimə olunub. Musavat.com bununla bağlı erməni mediasına istinadən xəbər verir.**

Məlumata görə, "məhkəmə" onun barəsində 2 aylıq həbs qərarı çıxarıb. Ermənilər absurd şəkildə "azərbaycanlı diversant" kimi təqdim etdikləri E.Hüseynzadə ilə bağlı növbəti şouya başlayıblar. Məlumata görə, qapalı müzakirələrdə azərbaycanlı girovu "vəkil" müdafiə edib və ona tərcüməçi ayrılıb.

Erməni tərəfinin bildirdiyinə görə, 1995-ci il təvəllüdlü Elnur Elman oğlu Hüseynzadəyə qarşı cinayət işi qaldırılıb. O, "diversiyaya cəhd"də və "sərhədi qanunsuz keçməkdə" ittiham olunur.

Qeyd edək ki, Azərbaycanın Müdafiə Nazirliyi erməni tərəfinin iddiasını təkzib edib, onun bir neçə ay əvvəl ordudan tərxis olunduğunu bildirib.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017



## Vidadi Zeynalov 43 milyonluq əmlak siyahısından narazıdır

### Nazirliyin həbsdə olan sabiq aparat rəhbərinin vəkili: "Əksər insanların nəsli-nəcabətində daha çox var..."

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin həbsdə olan sabiq aparat rəhbəri Vidadi Zeynalovun vəkili müvəkkilinin 43 milyonluq əmlakı ilə bağlı yayılan məlumatlara münasibət bildirib.**

Bu barədə musavat.com-a müraciət edən vəkil Ceyhun Yusifov bildirib ki, Vidadi Zeynalova məxsus olduğu deyilən və üzərinə həbs qoyulan əmlakların bir hissəsi sabiq aparat rəhbərinə məxsus deyil, həmin əmlakların bir hissəsi isə Vidadi Zeynalov nazirlikdə aparat rəhbəri işləmədiyi dövrdə alınıb.

Öncə onu qeyd edək ki, Vidadi Zeynalov həbs edildikdən sonra istintaq dövründə ona məxsus olduğu bildirilən ümumi dəyəri 43 milyon manatdan çox olan 67 daşınmaz əmlaka məhkəmə qərarı ilə həbs qoyulub. Həmin əmlaklar sırasında villalar, torpaq sahələri, evlər yer alır. Əmlaklar Vidadi Zeynalovun, övladlarının, bacısının və digər yaxın qohumlarının adınadır.

Vidadi Zeynalovun vəkili Ceyhun Yusifov bu məsələyə münasibət bildirərkən deyir ki, üzərinə həbs qoyulan əmlakların bir hissəsi müdafiə etdiyi şəxsə məxsus deyil: "Bəlkə də əksər insanların nəsli-nəcabətində bu qədər və ya daha çox əmlak var. Biz bundan narazıyıq ki, Vidadi Zeynalovun bütün qohumlarının adına olan əmlaklara həbs qoyulub. Hansı ki, həmin əmlakların Vidadi Zeynalovla heç bir əlaqəsi yoxdur. Bu da həmin şəxslərin hüquq və mənafelərinin pozulmasıdır. Məqsədli şəkildə bu qədər əmlaka həbs qoyulmasını düzgün hesab etmirik".

Vəkil C.Yusifovun sözlərinə görə, üzərinə həbs qoyulan bəzi əmlaklar pay torpaq sahələridir. Onun dediyinə görə, siyahıda göstərilən əmlaklar arasında Vidadi Zeynalova və onun qohumlarına aid olmayan mənzil də var: "Üzərinə həbs qoyulan əmlaklardan biri Hövsanda olan 2 sot torpaq sahəsidir. Hansı ki, həmin torpaq sahəsi Vidadi Zeynalovun Qarabağ döyüşlərinin iştirakçıçı olmuş qardaşına 1995-ci ildə icra hakimiyyəti tərəfindən verilib. Yasamal rayonunda, Qurtqaşınlı küçəsində yerləşən binada olan mənzilə də həbs qoyulub. Həmin mənzil Vidadi Zeynalovun qaynınındır və o, ailəsi ilə birlikdə həmin evdə yaşayır.

Həmçinin Yevlaxın Kövər kəndindəki 0,33 hektar torpaq sahəsinə də həbs qoyulub. Həmin əmlak pay torpağıdır və Vidadi Zeynalovun anasının adınadır. 67 əmlakın yer aldığı siyahıda Yasamal rayonu, M.Fətəli küçəsi, 107 saylı ünvanda yerləşən ümumi sahəsi 40.5 kvadratmetr olan mənzilə də həbs qoyulub. Həmin mənzilin Cəfərova Kəmalə Zeynal qızının adına olduğu göstərilir. Amma dəyəri 60 min manat göstərilən bu mənzilin kimə məxsus olduğu bizə məlum deyil. Yəni belə bir mənzilin olması Vidadi Zeynalova nə də onun yaxınlarına məlum deyil".

Vəkil Vidadi Zeynalovun nazirlikdə işləməkdən əvvəl olan əmlaklarına da həbs qoyulmasından narazı olduqlarını qeyd edib: "Vidadi Zeynalovun dədə-baba evi 1947-ci ildə Kövər kəndində tikilib. Həmin evə də həbs qoyulub. Həmçinin taxıl əkilməsi üçün uzun müddətli icarəyə götürülən torpaq sahələrinin də üzərinə həbs qoyulub. Amma həmin torpaq sahələri əkin üçün faydalı idi və əkilirdi də. Bu işlə də Vidadi Zeynalovun bacısı oğlu məşğul olurdu. Burada qəbahət nə var idi? Torpaq sahələri əkib-becərlirdi".

Vidadi Zeynalov 2015-ci ilin noyabr ayının 13-də həbs edilib. O, qulluq mövqeyindən sui-istifadə edərək nazirliyin strukturuna daxil olan ayrı-ayrı qurumların vəzifəli şəxsləri ilə qabaqcadan razılaşmaqla həmin strukturlar tərəfindən işlərin görülmədiyi, tam yerinə yetirilmədiyi, avadanlıqlar alınmadığı, istifadə olunan avadanlıqların, xidmətlərin qiymətlərinin isə 4-5 qat şişirdilməsi və digər üsullarla işlərin və xidmətlərin guya yerinə yetirilməsini özlərinin himayə etdikləri, yaxın münasibətdə olduqları şəxslərin adına olan özəl şirkətlər tərəfindən saxta sənədlər əsasında rəsmiləşdirməsini təmin etməklə müvafiq müəssisələrin ayrı-ayrı banklardakı hesabına köçürülmüş 73 milyon 590 min manat pul vəsaitinin nağdlaşdırılmağa mənimsənilməsini və israf edilməsinin təşkilində təqsirləndirilir.

❑ İlkin MURADOV

## Bakıda oğurlandığı deyilən polis əməkdaşı haqda yeni xəbər

### Mətbuat xidməti olaya aydınlıq gətirdi; inspektor orqanlardan xaric edilə bilər...

**Bakıda yol polisinin əməkdaşı oğurlanıb. Hadisə fevral ayının 2-dən 3-nə keçən gecə baş verib. "Report"un məlumatına görə, Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin inspektoru Əliş Kərimov idarə etdiyi Az 90 YP 460 dövlət qeydiyyat nişanlı "KİA" markalı xidməti avtomobil ilə birlikdə oğurlanıb.**

Respublika Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirib ki, inspektor tapılıb. O, axtarıldığı müddətdə dostunun evində olduğunu deyib, özünün axtarıldığından xəbərsiz olduğunu söyləyib. K.Əliyev bildirib ki, hazırda məsələ ilə bağlı araşdırma aparılır.

Qeyd edək ki, yayılan məlumatda bildirilirdi ki, Ə.Kərimov Yol Patrul Xidmətinə məxsus xidməti avtomobili idarə edən zaman yolda dayandırılıb və avtomobilindən çıxarılaraq zorla naməlum dövlət qeydiyyat nişanlı "Mercedes" markalı maşına əyləşdirilib. Fevralın 3-də Az 90 YP 460 dövlət qeydiyyat nişanlı "Kia" markalı xidməti avtomobil Səbayel rayonunun Badamdar qəsəbəsi ərazisində tapılıb. Avtomobilin içərisində isə nəlayiq və hədə-qorxu xarakterli ifadələr yazılmış kağız parçası tapılıb.

Oğurlanan polis əməkdaşına məxsus mobil telefon isə sim kartsız halda Yasamal rayonu ərazisindəki Qanlı gölün ətrafında aşkarlanıb. Bakı şəhər ərazisində təhlükəsiz şəhər kameralarına baxış zamanı dövlət qeydiyyat nişanının görünməsi məhdudlaşdırılan "Mercedes" markalı avtomobilin Yol Patrul Xidmətinə məxsus avtomobilin arxası ilə hərəkət etdiyi məlum olub. Araşdırmalar nəticəsində naməlum qeydiyyat nişanlı "Mercedes"



markalı avtomobilin şəhər ərazisində yalnız iki kameranın obyektivinə düşdüyü aydın olub.

Oğurlanan polis inspektorunun axtarışı davam edir. Hadisənin kim və ya kimlər tərəfindən törədildiyi araşdırılır. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri polis polkovniki Ehsan Zahidov "Report"a bildirib ki, fevralın 3-də Bakı BPİ DYPİ-nin Növbətçi Hissəsinin sürücü-polis nəfəri Əliş Kərimov ona təhkim olunmuş xidməti avtomobili idarənin yaxınlığında yol kənarında saxlayaraq öz rəhbərliyinə xəbər vermədən naməlum istiqamətdə gedib. Mətbuat xidmətinin rəhbəri hadisə barədə əlavə məlumat verməyib və araşdırmaların davam etdiyini söyləyib.

Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin növbətçi hissəsinin oğurlandığı, yaxud yoxa çıxdığı haqda məlumat yayılmış sürücü-polis nəfəri Əliş Kərimov tapılıb. Bu məlumatı Qafqazinfo BDYPİ-yə istinadla yayıb. Məlumatda deyilir ki, Ə.Kərimov fevralın 3-də xidmətini başa vurandan sonra dostugilə getdibmiş. O bu gün evlərinə qayıdıb. Axtarıldığından isə xəbərsiz olub.

Daxili İşlər Nazirliyi Mətbuat xidmətinin rəisi, polkovnik Ehsan Zahidov isə virtualaz.org-a bildirib ki, böyük ehtimalla DYP əməkdaşı Əliş Kərimov yol verdiyi səhlənkarlığa görə işdən çıxarılacaq.

Qeyd edək ki, Az 90 YP 460 dövlət qeydiyyat nişanlı "KİA" markalı avtomobil BŞBDYPİ-nin Növbətçi Hissəsinə məxsus xidməti maşındır. Oğurlanan inspektor Növbətçi Hissə rəisi, polis mayoru İlqar İbrahimovun sürücüsü işləyib.

❑ E.HÜSEYNOV

## Rusiyaya qarşı sanksiyaların götürülməsi manata da təsir edəcək

### Fikrət Yusifov: "Proseslərin Azərbaycana təsiri də qaçılmazdır..."

**Donald Trampın prezident seçilməsindən sonra ən çox müzakirə olunan məsələlərdən biri də 3 ildir Rusiyaya qarşı ABŞ başda olmaqla, Avropa Birliyinin tətbiq etdiyi sanksiyaların aradan qaldırılıb-qaldırılmayacağıdır. Doğrudur, bu istiqamətdə hələ ki real addımların atılacağı inandırıcı görünmür.**



Çünki şimal qonşumuz məhz sanksiyalara məruz qalmasına səbəb olan işğal etdiyi Ukrayna torpaqlarını geri qaytarmaq fikrində deyil. Bununla belə, ekspertlər təkcə siyasi deyil, iqtisadi istiqamətlərdə də sanksiyalar aradan qaldırılsa, böyük töhfələrinin olacağını vurğulayırlar. Xüsusilə, rus rubluna bunun ciddi təsir edə biləcəyi deyilir.

Qonşu ölkə olduğunu nəzərə alaraq, bu addımın hər gün dollar qarşısında aciz duruma düşən Azərbaycan manatına da təsirsiz ötüşməycəyi gözlənilir. Bu baxımdan bir sıra ekspertlər Rusiya üzərindəki sanksiyaların aradan qaldırılmasının Azərbaycan üçün də müsbət nəticəsini istisna etmirlər.

Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov səslənən fikirlərə bu cür mövqe sərgilədi: "Öncə onu deyək ki, Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyaların yaxın zamanlarda aradan qaldırılacağı barədə səslənən fikirlər inandırıcı görünmür. Bu sanksiyaların aradan qaldırılması üçün ilk öncə Rusiya-Ukrayna münasibətlərindəki Ukraynanın Şərqi ilə bağlı hərbi münaqişə nizamlanmalı, hər iki dövlətin bu məsələ və Krımla bağlı razılığa gəlməsi lazımdır. Belə bir razılığın isə yaxın illərdə əldə ediləcəyi inandırıcı deyil. Bir sözlə, konfliktin bundan sonra illərlə davam edəcəyi daha çox gözlənilənidir. Çünki Rusiya bu məsələdə öz iddiasından əl çəkməyəcək, Ukrayna isə öz torpaqlarının mövcud durumda qalması ilə heç vaxt barışmayacaq. Belə olan halda sanksiyaların ömrü kifayət qədər uzanacaq. Bu səbəbdən də sanksiyaların yaxın perspektivdə aradan qaldırılması mümkün deyil. Əksinə, ola bilsin ki, Rusiya bu problemlə bağlı bundan sonra daha ciddi sanksiyalarla üzləşsin.

D.Trampın prezident kürsüsünə əyləşməsi isə hələ ABŞ siyasətinin bu məsələ ilə bağlı dəyişəcəyi demək deyil. Bu dövlətin belə məsələlərlə bağlı bəlli strategiyası var. Onu bir tək prezident dəyişə bilməz. Digər tərəfdən, Trampın seçkiqabağı bəyanatları ilə seçkidən sonra səsləndirdiyi fikirlər arasında artıq ziddiyyətli məqamlar ortaya çıxmağa başlayıb. Bu da adi bir haldır. Onun " Mən Vladimir Putinə hörmət edirəm, ancaq onunla dil tapacağımı deyə bilmərəm" kimi bu günlərdə səsləndirdiyi fikirləri "Tramp seçkilərdən dərhal sonra ABŞ-ın Rusiyaya tətbiq etdiyi sanksiyaları aradan qaldıracaq" deyənlərin bu fikirləri səsləndirərkən nə qədər haqlı olub-olmadıqlarını göstərəcək. Artıq indi deyə bilərik ki, ABŞ-ın Rusiyaya tətbiq etdiyi sanksiyaların aradan qaldırılması heç də real görünmür".

İqtisadçı alim sanksiyaların aradan qaldırılmasının rus iqtisadiyyatına olacaq təsirlərindən də söz açdı: "Sanksiyaların aradan qaldırılmaması Rusiya iqtisadiyyatına öz mənfi təsirini illərlə göstərəcək. Bu təsiri aradan qaldırmaq məqsədilə Rusiya öz iqtisadiyyatının neftdən asılılığını minimuma endirməli və Qərbdən alınan müasir texnoloji avadanlıqların istehsalını özündə təşkil etməyi bacarmalıdır. Bütün bu işlərin görülməsinə isə illər lazımdır. Sanksiyaların aradan qaldırılması mümkün olacağı təqdirdə Rusiya iqtisadiyyatının daha sürətlə inkişafı mümkündür. Belə olduğu halda rublun da sabitliyi təmin edilə bilər. Rusiya Azərbaycanın ən böyük ticari tərəfdaşıdır. Bu səbəbdən bu ölkənin iqtisadi həyatında və maliyyə bazarlarında baş verən proseslərin Azərbaycana təsiri də qaçılmazdır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017

# Eldar Mahmudovun eyvanının altında öldürülən general

## Komandanı kim və niyə aradan götürdü; müdafiə nazirinin sabiq müavini Rail Rzayevin qətlinin 8 ildir qapalı qalmasının sirri...


Rail Rzayev


Eldar Mahmudov

**Fevralın 11-də müdafiə nazirinin sabiq müavini, Hərbi-Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ HHMQ) keçmiş komandanı, general-leytenant Rail Rzayevin qətlə yetirilməsinin 8-ci ildönümü tamamlanır. Rail Rzayev öldürüldüyü günə qədər müdafiə nazirinin müavini, HHQ HHMQ komandanı vəzifəsini tuturdu.**

R.Rzayev tutduğu vəzifələrdən asılı olmayaraq, o özünü daim səriştəli və bacarıqlı hərbçi, yüksək peşəkarlığa və təşkilatçılıq qabiliyyətinə malik təcrübəli komandir kimi tanıtmışdı. Onun müstəqil Azərbaycan Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının yaradılması və formalaşdırılmasında böyük əməyi olub. R.Rzayevin Vətən qarşısında xidmətləri yüksək qiymətləndirilib. O, bir sıra orden və medallara layiq görülüb, o cümlədən Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib...

***

Qətldən ötən illər ərzində bu sualın cavabı faktiki olaraq verilməyib. Qətl törədilən andan müəmmalı proseslər baş verib, R.Rzayev qətlə yetirilərkən onun birbaşa rəhbəri olan müdafiə naziri Səfər Əbiyevin addımları çoxsaylı suallar yaradıb. 2009-cu il fevralın 11-də Rail Rzayev öldürüləndən sonra Səfər Əbiyevin Bakıda olmadığı haqda rəsmi məlumat yayıldı. Sabiq naziri öz müavininin 3 mərasimində də görən olmadı. R.Rzayevin 7 mərasimi və 40 mərasimi də beləcə keçdi. Səfər Əbiyev müavininin yasına getmədi, heç onun qətlinin üstünün açılması üçün də hansısa addımlar atmadı, danışmadı. Hər halda, Səfər Əbiyevin belə bir təşəbbüslə çıxış etməsini eşidən olmayıb.

R.Rzayev səhər 07:30-da işə gedərkən evinin yaxınlığında, xidməti avtomobilində başına açılan atəşlə öldürülüb. Əvvəlki illərdə yazmışdıq, bir də yada salaq. Generalı həmin gün tələm-tələsik, çox sürətlə dəfn etdilər. Bu tələskənliyi şərtləndirən nə idi, niyə belə edirdilər, bilinmirdi. Qətllə maraqlanan hər kəsdə belə fikir formalaşmışdı ki, Rail Rzayevin qəbri öldürülməsindən xeyli əvvəl qazılıb hazırlanıb və dəfn yeri sahibini içinə yerləşdiriləcəyi günü gözləyib.

Qətlin növbəti günü beyinlərə hakim kəsilən bu fikir təsdiqləndi - xəbər yayıldı ki, R.Rzayevin qəbri hələ o öldürülməzdən əvvəl qazılıb. Qəbr yerini özü seçib və alıb. 64 yaşı olan, həyat dolu bir general-leytenantı ölüm haqda düşünməyə vadar edən nə, hansı hadisə olmuşdu?

Bu gün artıq dəqiq bilinir ki, R.Rzayev ölümündən az müddət əvvəl II Fəxri Xiyabana gedərək özünə qəbir yeri sifariş verib. Həmin yer 2005-ci ildə sifarişlə qətlə yetirilən "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun məzarının iki addımlığında yerləşir.

Rail Rzayevin məzarı üstündən Elmar Hüseynovun uyuduğu qəbir ovuc içindəki kimi görünür. "R.Rzayev qəbir yerini təsadüfən seçmişdi, yoxsa bilərəkdən məhz oranı almışdı" sualı da açıqdır.

O dövrdə belə bir xəbər vardı ki, Rail Rzayev qətlə yetirilməzdən 1 həftə əvvəl onun olduğu xidməti maşına odlu silahdan atəş açılıb. Hadisə şəhərin ortasında, günün günorta çağı baş verib. R.Rzayev bu haqda raportla birbaşa rəhbəri Səfər Əbiyevə məlumat verib, tədbir görülməsini istəyib, MTN-i məlumatlandırıb.

Qətldən sonra Nəcməddin Sadıkov bu məlumatı təsdiqləyən açıqlama verdi. "Röyters"ə müsahibəsində dedi ki, Rail Rzayevin qətlindən 1 həftə əvvəldən izləndiyi haqda məlumatlı olublar. Müavini öldürüləndən sonra Səfər Əbiyevin sorağı Dubaydan, oradakı silah sərgisindən gəldi. S.Əbiyev gözlənilənlərin əksinə olaraq 18 il müddətində onun müavini olmuş şəxsin, öldürülən general-leytenantın dəfninə, yas mərasiminə qatılmadı.

Onun dəfn mərasiminə nazirlərdən heç kim gəlmədi. Qətldən sonra Təhlükəsizlik Şurasının iclası çağırıldı. O dövrdə milli təhlükəsizlik naziri postunu tutan Eldar Mahmudovu iclasda müavini təmsil etdi. "Eldar Mahmudov haradadır" sualına cavab almaq üçün MTN-ə verdiyimiz sorğular da cavabsız qaldı.

Həmin iclasda amansız cinayətin tezliklə açılması üçün xüsusi əməliyyat-istintaq qrupunun yaradılması, ən peşəkar əməliyyatçı və istintaqçıların ora daxil edilməsi tapşırığı verilmişdi. İclası telekanallar vasitəsi ilə izləyənlərdə belə təəssürat yaranmışdı ki, tezliklə ölkənin hava məkanına cavabdeh olan general-leytenantın qətlinin üstü açılacaq. Rail Rzayevə açılan atəş əslində ölkəmizin təhlükəsizliyinə atılan güllə idi.

Qətlin üstünün açılması üçün ilkin şərtlər də vardı - qətl Beynəlxalq Bankın İnşaatçılar prospektindəki ofisinin arxasında, binanın təhlükəsizlik videokameralarının əhatə dairəsində törədilib. Həmin çoxmərtəbəli binanın 2-ci mərtəbəsi bütünlüklə Eldar Mahmudovun ixtiyarında idi. Kameraların yaddaşına düşən qatilin paytaxt boyu hər addımda olan nəzarət kameraları vasitəsi ilə izlənməsi və müəyyən edilməsi elə də müşkül olmalı deyildi. Amma günlər aylarda cəmlənib, illərə çevrildikcə bu təəssürat sabun köpüyünə döndü, aradan qalxdı.

Eldar Mahmudov eyvanının altında öldürülən general-leytenantın qətli haqda nə deyib? Maraqlıdır ki, amansız cinayətdən 2 ay ötəndən sonra milli təhlükəsizlik naziri Eldar Mahmudov "Zerkalo" qəzetinə müsahibəsində iş üzrə 4 versiyanı dilə gətirmişdi. O, versiyaları konkretləşdirməsə də, ehtimallar sonradan mətbuatda dərc olundu.

İlkin versiya bu idi ki, general tikinti biznesi ilə bağlı öldürülüb. Bu versiyanın tərəfdarları deyirdi ki, Rzayevin tikinti sektorundakı fəaliyyəti bu sahəni monopoliyaya alan qüvvənin planları ilə üst-üstə düşməyib.

İkinci versiya bu idi ki, general şimal qonşumuzun geosiyasi maraqlarının qurbanı olub. Sonradan da bu versiyanı dəstəkləyən bir neçə xəbər yayıldı. 3-cü versiya kimi isə qətldən 20 gün sonra generalın ailə münaqişəsi zəminində öldürülməsi xəbəri də yayılmışdı. Bu xəbərləri dəstəkləyən fakt isə Rzayevin əmlakı ilə bağlı Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinə qətli araşdıran istintaq qrupu tərəfindən sorğu göndərilməsi olmuşdu.

İstintaqın generalın ikinci həyat yoldaşının yaxını tərəfindən öldürülməsi versiyasını əsas götürməsi ilə bağlı xəbərlər də mediaya gəlirdi. Orada deyilirdi ki, Rzayevin iki ailəsi olub. General birinci ailəsini ölümündən xeyli əvvəl İsrailə göndərib. Özü də ora getmək fikrində olub. Hətta qətlindən sonra istintaqçılar Rzayevin iş yerində sənədləri yoxlayarkən onun adına rəsmiləşdirilmiş, İsrailə uçmaq üçün aldığı aviabilet də tapıb. Biletin üzərindəki tarix fevralın 12-si olub.

Digər versiya isə generalın hakimiyyətdə təmsil olunan generallarla mübahisəsinin nəticəsində aradan götürülməsidir. Şərti olaraq sonuncu versiya isə Rzayevin silah alveri ilə bağlı öldürülməsinə bağlanırdı. Bu versiyaya görə, silah alverindən əldə olunan gəlirin bir hissəsi yoxa çıxıb. Bunun hesabını isə Rzayevdən soracaqlarmış. Bu alverdə əli olanlar generalı aradan götürüb özlərini sorğu-sualdan yayındıra bilərdilər.

### ABŞ səfirinin versiyaları...

"WikiLeaks" saytının açıqladığı sənədlər sırasında R.Rzayevin qətli ilə bağlı ABŞ-ın ölkəmizdə səfiri olmuş Enn Dersinin Vaşinqtona yolladığı teleqram da var. Diplomatın Vaşinqtona yazdığı məktubda BMT-nin narkotiklərə qarşı mübarizə proqramının regional mərkəz təmsilçilərinin ABŞ səfirliyinin əməkdaşları ilə keçirilən görüşündən bəhs edilir. Dersi Azərbaycandan ötürülən narkotiklər barədə yazır ki, BMT-nin regional mərkəzinin Bakı təmsilçiliyinin hesabatına görə, İran ərazisindən Azərbaycana daxil olan narkotik maddələrin həcmində artım müşahidə olunub. Azərbaycan hökumətinin apardığı işlər nəticəsində ələ keçirilən narkotik maddələrin çəkisi 250 kiloqrama çatıb. Lakin bu, İrandan Azərbaycana daxil olan narkotik maddələrin yalnız 5 faizini təşkil edir. İrandan Azərbaycana daxil olan narkotik maddələrin 95 faizinin hamısı Avropa bazarlarına çatıb.

Enn Dersinin 2009-cu il 13 fevral tarixli məxfi teleqramında Rail Rzayevin qətlinə dair qeydlər yer alır. Amerikalı diplomat general Rzayevin qətliylə bağlı irəli sürülən versiyalara toxunub: "Generalın öldürülməsiylə əlaqədar müxtəlif versiyalar gündəmə gəlib. Rauf Mirqədirov kimi siyasi şərhçilər Rzayevin qətlində Rusiyanın əlinin olduğunu ehtimal edir. Onun fikrincə, Rusiya generalın qətliylə Azərbaycanda ictimai sabitliyi pozmaqda maraqlı ola bilər".

HHQ-nin komandanının qətliylə bağlı ikinci ehtimala toxunan Enn Dersi qeyd edir ki, bu, Rzayevin şəxsi biznes maraqlarına görə öldürülməsidir. Bir neçə diplomatik mənbə Rail Rzayevin hərbi hava qüvvələrinin texniki təchizatında apardığı uğursuz "islahatlar" üzündən sui-qəsdə uğradığını söyləyir. Diplomat daha sonra yazır ki, hələ 2004-cü ildə yayılmış xəbərlərdə Rail Rzayevin hərbi hava qüvvələrinin əmlakından şəxsi maraqları naminə istifadə etdiyi deyilirdi.

Rail Rzayevin qətliylə bağlı daha geniş yayılan iddiaya istinad edən Enn Dersi həmin ehtimalın daha inandırıcı olduğunu yazır: "Sonuncu ehtimal isə daha çox inandırıcı görünür. Generalın hakimiyyətdaxili qruplaşmalardan birinin və ya yüksək vəzifə daşıyan şəxsin göstərişi ilə öldürülməsi versiyası digər iddialarla müqayisədə daha inandırıcıdır. Onun qətlə yetirilməsi prosesi və zərərçəkmişin hərəkət qrafikinin dəqiq seçilməsi qətli sifariş verən və ya verənlərin hökumət daxilində yüksək səviyyəli mənbələrə sahib olduğuna işarədir".

Versiyaları araşdırmaq istintaqın işidir. Amma görünür, istintaqçıların öz işini görmək üçün kifayət qədər vaxtları olsa da, generalın qətlini açmaqda nədənsə aciz qalıblar.

❑ E.MƏMMƏDƏLİYEV



# Ermənistandan... Azərbaycana qaçış

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Ermənistan Qarabağ məsələsində maksimum vaxt qazanmağa çalışır. Hər fürsətdən yararlanır, hər cür əclaflığa gedir, təki beynəlxalq aləm işğal faktını unutsun, Azərbaycan "reallıqla" barışsın, torpaqların ilhaqının qanuniləşdirilməsinə razılıq versin.**

Ötən ilin dekabrında şəhid olmuş əsgərimiz Çingiz Qurbanovun nəşini nəhayət, 39 gündən sonra geri qaytardılar. Heç şübhəsiz ki, Ermənistan rəhbərliyi meyit alverçisi kimi tanınmasına görə dünyanın tənəsini qazandığına görə bu addımı atmadı. Sadəcə, əclafcasına növbəti şousunu nümayiş etdirmək şansı qazandığı üçün gecikmiş "humanizm" nümayiş etdirdi.

İşğalçı ölkə fevralın 1-dən yeni tamaşaya başlayıb. İndi də dumanda azıb Talış kəndi istiqamətində ermənilərin əlinə keçən Elnur Hüseynzadənin "məhkəməsini" qurublar. Yenə də eyni ssenari... Elnur da 2014-cü ilin iyulunda doğma yurdlarını ziyarət üçün gedən Dilqəm, Şahbaz və Həsən kimi, 29 dekabrda həlak olan Çingiz kimi "diversant" deyə, təqdim olunur, "sərhədi qanunsuz keçməkdə" ittiham edilir.

Beynəlxalq aləm Azərbaycan torpağında "sərhəd" xətti çəkən Ermənistana dözümlü yanaşdığı üçün düşmən at oynadır. Ermənistan hakimiyyətinin dişində şirə qalıb. Azərbaycan torpağını 25 ilə yaxındır işğalda saxlayır, BMT qətnamələri icra olunmamış qalıb, ancaq nə təzyiq var, nə sanksiya. Azərbaycan ərazisində Azərbaycan vətəndaşları "əsir", "girov" götürülür, mühakimə olunur, ömürlük həbs edilir, yenə də İrəvana təpki göstərən yoxdur. Ona görə də azğınlığını davam etdirir Serj Sərkisyan hakimiyyəti.

Bu şouları davam etdirməkdə işğalçının başqa məqsədləri də var: 1.Sərkisyan hakimiyyəti daxili ictimaiyyətin başını qatır, diqqəti xarici düşmənə yönəldib içəridəki problemləri "unutdurur"; 2. "Həbs etdiyi" azərbaycanlıları Xankəndidə "mühakimə" etməklə beynəlxalq ictimai rəyə Qarabağın "müstəqil" olduğunu yeritməyə çalışır; 3. Bu yolla Azərbaycana "Qarabağın sərhədləri"nin "toxunulmaz" olduğu mesajını davamlı şəkildə vermək istəyir.

Ermənistanda da çox yaxşı anlayırlar ki, Azərbaycan işğal faktı ilə barışmayacaq, gec-tez qisasını alacaq. Aprel müharibəsi düşmənin yaddışını təzələdi, anladı ki, Azərbaycan 90-cı illərdəki kimi ov tüfəngi ilə avtomat qarşısına çıxan könüllülərdən ibarət deyil, hərb sənətinə yiyələnən, müasir silah-sursatla təchiz olunan ölkədir.

Üstəlik, ermənilərdən fərqli olaraq, Azərbaycan vətəndaşlarının döyüş ruhu tam yerindədir, istənilən an savaşa hazırdırlar. Bunu "Gallup International" tərəfindən aparılan sorğu da təsdiqlədi. Nəticələrə görə, Azərbaycan vətəndaşlarının 85 faizi öz Vətəni uğrunda döyüşməyə hazırdır. Siyahının 15-cisi olan ermənilər isə aprel savaşından sonra ölkələrini tərk etmələrinə görə liderdirlər. Aprel döyüşlərində Ermənistan təkcə işğalda saxladığı yüksəklikləri, onlarla döyüş tankını, yüzlərlə əsgərini yox, həm də 6300 nəfər vətəndaşını itirib. İşğalçı ölkə necə sarsılıbsa, qısa müddətdə bu qədər gənc erməni aradan çıxıb. Erməni mətbuatı təsdiqləyir ki, son üç ildə əhalinin 5 faizi - 150 min nəfər Ermənistanı tərk edib. İkinci Qarabağ savaşının Ermənistan üçün fəlakət olacağını dəqiq bilirlər.

Bu yaxınlarda Ermənistanın Azərbaycanla həmsərhəd kəndlərindən birindən hazırlanmış reportaja baxdım. Kənd sakini deyirdi ki, vaxtilə 850 nəfərin yaşadığı kənddə indi heç 50 nəfər də qalmayıb.

Azərbaycan prezidenti işğaldan azad olunmuş Cəbrayılın Cocuq Mərcanlı kəndinin abadlaşdırılması qərarını verib. Xalqın reaksiyası göz önündədir. Ermənistan hakimiyyəti apreldən sonra nə qədər güzəşt ved edirsə, erməniləri Talış kəndinə qaytara bilmir. Azərbaycanlılar isə Cocuq Mərcanlıya qayıtmaq üçün növbəyə durub. Qərara əsasən 50 ev tikiləcək, amma 200 nəfər kəndinə qayıtmaq istəyir. Budur fərq!

Azərbaycanlılar işğaldan azad olunmuş yurduna qayıdır, ermənilər isə Ermənistandan... Azərbaycana qaçır... Düşməninə sığınır ermənilər. Qarabağ ermənilərə səadət bəxş etmədi. Onlar "Qarabağlı Ermənistan"da çürüməkdənsə, hazırda Qarabağsız olan Azərbaycanı seçirlər. İki ölkə arasındakı fərq budur!!!

Ermənilər Xocalı görə üzr istəyir, işğal faktını qınayır, Sərkisyanı lənətləyir. Bunun qarşılığında Sərkisyan azərbaycanlılara məhkəmə qurur. Erməni xalqının bir gün onu mühakimə edəcəyini anladığı üçün azərbaycanlıların məhkəmə şousu ilə zaman qazanır. Amma nə vaxta qədər? Bir gün onun da zamanı bitəcək...

# Müxalif partiya sədrindən Siyavuş Novruzova dəstək

## "İmkanlı şəxslər var ki, partiyaları 10-15 min manata sədrindən alıblar, fəaliyyətsiz təşkilatların qeydiyyatı ləğv edilməlidir"

**Azərbaycanda bəzi imkanlı şəxslər siyasi partiyaları pulla alaraq gələcək məqsədləri üçün dondurulmuş vəziyyətdə saxlayır. Bu barədə Azvision.az-a Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP icra katibinin müavini Siyavuş Novruzov deyib. Komitə sədri bildirib ki, bu, bəzi siyasi partiyaların alver predmetinə çevrildiyinin göstəricisidir: "Təəssüf ki, bəzi siyasi partiyalar alver mənbəyinə çevrilib. İmkanlı adamlar həmin partiyanı alır və sandığında saxlayır ki, gələcəkdə istifadə etsinlər. Bununla bağlı nümunələr var. Hələlik həmin şəxslər və partiyaların adlarını açıqlamaq istəmirəm".**

S.Novruzov prosesin necə baş verdiyini də açıqlayıb: "Azərbaycanda qeydiyyatdan keçmiş partiyalar var və onlar fəaliyyət göstərmirlər. İmkanlı şəxs həmin partiyanın sədrinə müəyyən məbləğdə pul təklif edir və partiyanı alır. Partiya sədri partiyanı alver predmetinə çevirir. Möhürünü isə imkanlı şəxsə təhvil verir. İmkanlı şəxs isə aldığı partiyanı dondurulmuş formada saxlayır. Sabah lazım olanda həmin şəxs qurultay keçirir və partiya sədri olur. Belə olanda isə partiyanı yenidən qeydiyyata almağa ehtiyac qalmır".

Deputat vurğulayıb ki, Azərbaycanda fəaliyyətsiz partiyaların qeydiyyatı ləğv olunacaq: "Azərbaycanda 100-ə yaxın partiya var və onlardan 54-ü qeydiyyatdan keçib. Yəni 46 partiyanın qeydiyyatı yoxdur. Qeydiyyatda olanların böyük əksəriyyəti isə kağız üzərində fəaliyyət göstərir. Partiya nizamnaməsinin qarşıya qoyduğu tələblər-seçkidə iştirak, kadrların hazırlanması, alternativ layihələrin verilməsi və digər bu formada olan məsələlər yerinə yetirilmir. Təəssüflər olsun ki, onlar heç bir işlə məşğul olmurlar. Ancaq aradabir bəyanat verməklə funksiyalarını başa çatmış hesab edirlər. Bu baxımdan dünyanın hər yerində, məsələn Avstriyada iki il belə fəaliyyət göstərən partiyaların qeydiyyatı avtomatik olaraq ləğv edilir".



Sərdar Cəlaloğlu



Siyavuş Novruzov

Siyavuş Novruzovun dedikləri ADP sədri Sərdar Cəlaloğlu tərəfindən təsdiqlənib. "Yeni Müsavat"a açıqlamasında Azərbaycanda dövlət qeydiyyatından keçmiş 54 partiyanın yarıdan çoxunun heç bir fəaliyyətinin olmadığını, bəzi partiyaları pul qarşılığında hansısa oliqarxın, məmurun aldığını bildirdi: "Həqiqətən də bəzi maddi imkanı yüksək olan şəxslər pulla həm partiya, həm QHT, həm qəzet, həm sayt alır. Azərbaycanda hər şey iqtisadi maraqlara tabe etdirilib. Biz də bilirik ki, hansı partiyalar alınıb və kimə xidmət edir. Hətta bəzi fəaliyyətdə olan partiyaların da hansı oliqarxın partiyası olduğunu da bilirik. Elə partiyalar da mövcuddur ki, adı var, heç bir fəaliyyəti yoxdur; oliqarxlar, imkanlı şəxslər həmin partiyanı 10-15 min manata sədrindən alıblar. Həmin imkanlı şəxslər bunu o məqsədlə ediblər ki, bir gün Əli İnsanov kimi dara düşərlərsə onun işi siyasiləşsin, siyasi partiya təsisçisi və ya sədri kimi peyda olsun və özünə qarşı atılan addımlara siyasi don geyindirə bilsin. Azərbaycanda demokratiyanın özündə bir formalizm xəstəliyi əmələ gəlib. Bunun bir nümunəsi də siyasi partiyalarla bağlıdır ki, kimlərsə partiya təsis edib qeydiyyatdan keçirib sənədlərini, möhürünü alıb aparıb qoyub evinə. Günün birində də ondan yuxarıda qeyd edildiyi şəkildə istifadə edilir. Bütün bunlar hamısı ölkədə normal demokratik siyasi mühitin olmaması ilə bağlıdır. Biabırçılıqdır ki, biri öz partiyasını müəyyən məbləğə başqasına satır. Azərbaycanda çox şey alınıb-satıldığı kimi partiyalar da alınıb-satılır. Bunun hüquqi mexanizminin necə həyata keçirildiyinə gəlincə, partiyanı alan şəxs öncə həmin partiyanın üzvü olmaq üçün ərizə yazır, sonra onu partiyaya üzvlüyə qəbul edirlər, sonra guya qurultay keçirilir və həmin şəxs sədr seçilir və hüquqi sənədlər onun adına keçirilir. Partiya bir əldən başqa ələ keçir".

S.Cəlaloğlu qeyd etdi ki, Azərbaycanda partiyaların yaranması təbii proses kimi getmədiyi üçün təbii yolla sıradan çıxmaları mümkün deyil, inzibati qaydada bu iş aparılmalıdır. Ölkədə azad siyasi rəqabət şəraiti yoxdur, ölkədə siyasi partiyaların fəaliyyəti üçün şərait yaradılmayıb. Bu baxımdan artıq ən güclü partiyalar da yavaş-yavaş fəaliyyətsizləşirlər və siyasi səhnədə görünməz olmağa başlayırlar: "Təbii yolla partiyaların sıradan çıxması və təbii yolla yeni partiyaların əmələ gəlməsi hazırkı vəziyyətdə mümkün deyil. Partiyaların qeydiyyata alınmasının özü də təbii yolla olmayıb. Partiyaların bir çoxu formal olaraq yaradılıb, müəyyən siyasi konyuktura üçün də dövlət qeydiyyatına alınıb. Məhz həmin partiyaların əvvəldən adı olub reallıqda isə özləri olmayıb. Bu gün cəmi 4-5 partiyanın az-çox fəaliyyət göstərdiyini, Azərbaycanda və dünyada baş verən proseslərlə bağlı mövqeyini ortaya qoyduğunu görürük. Əgər biz bu gün 54 dövlət qeydiyyatında olan partiyadan cəmi ononun adını real fəaliyyət göstərən partiya kimi saya bilmiriksə, deməli, doğrudan da həmin 54 partiyanın təxminən 40-ının sadəcə adı Ədliyyə Nazirliyində qeydiyyatda var. Onların adları belə, cəmiyyətə bəlli deyil, elələri var ki, heç vaxt qurultay keçirməyiblər. Əgər bir partiyanın ki, sədri hələ bu günə qədər ağzını açıb bir hadisə ilə bağlı heç bir fikir bildirməyib, deməli yox kimidir. Ona görə də belə partiyaların həmısının dövlət qeydiyyatı ləğv olunmalıdır. Amma bu barədə qərar qəbul edilərkən qurunun oduna yaş yanmamalıdır - az-çox fəaliyyəti olan və hakimiyyətə müxalifətdə olan partiyalara problem yaradılmamalıdır. Bizim yeganə narahatlığımız bundandır. Yoxsa, biz də dəfələrlə bəyan etmişik ki, süni şəkildə partiya çoxluğu yaradılmamalıdır və varlığı görünməyən partiyaların qeydiyyatı ləğv edilməlidir. Artıq keçid dövrü arxada qalıb, pis-yaxşı 25 ildir Azərbaycanda siyasi həyat yaşayırıq və süni şəkildə partiya çoxluğu görüntüsünə ehtiyac yoxdur. Dövlət qeydiyyatında olan elə partiyalar var ki, özləri real həyatda olmadığı kimi sədləri belə həyatda deyillər, ölüblər, amma adları partiya sədri kimi hələ də qalır. Belə partiyaları Ədliyyə Nazirliyinin qeydiyyatda saxlaması mənasızdır".

S.Cəlaloğlu onu da dedi ki, heç bir fəaliyyəti olmayan partiyalar sırasında hazırda sədri deputat mandatı daşıyan bir sıra partiyalar da yer alır və əslində onların da qeydiyyatı ləğv edilməlidir: "Məsələn, Sabir Hacıyevin, Əli Məsimlinin, Xanhüseyn Kazımlının partiyası var. Amma o partiyaların hansısa fəaliyyəti ortada yoxdur, hansısa qurultay keçirdikləri məlum deyil. Sədrləri deputatdır deyə, o cür partiyaların da qeydiyyatının saxlanması mənasızdır. Azərbaycanda siyasi partiya sistemi böhran yaşayır. Partiyalar var ki, fəaliyyəti var, lakin parlamentdə təmsilçiliyi yoxdur, partiyalar var ki, yalnız bir nəfər sədrdən ibarətdir özü yoxdur, partiyalar da var ki, nə parlamentdə sədri var, nə də özü var. Ona görə də ilk növbədə üzvləri və fəaliyyəti olan partiyalar bəlli olmalıdır və siyahıdakı 54 partiyanın çoxunu çıxdaş eləmək lazımdır. Bu yolla siyasi partiyaların mənasız süni çoxluğunu aradan qaldırmaq olar. Məqsəd o olmalıdır ki, Azərbaycan demokratiyasına xidmət etsin bu addımlar, demokratiyaya əlavə zərbə vurmasın".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017

**"Baxış bucağı"**

**Milli Məclisin yaz sessiyasının ilk iclasında AMEA-nın Tarix İnstitutunun direktoru, professor Yaqub Mahmudov İrəvan şəhəri və ətraf ərazilərin ermənilərə güzəşt edilməsi barədə məsələyə hüquqi qiymət verilməsi təşəbbüsü ilə çıxış edib. Tarixçi alimin bu fikri cəmiyyətdə birmənalı qarşılanmayıb, hətta təşəbbüsü yersiz sayanlar da tapılıb. Milli Məclisin deputatı, professor Fəzail İbrahimli ilə bu mövzuda danışdıq.**

# Tarixçi alimdən deputat həmkarına sərt reaksiya

## "Mən bilmirəm Araz Əlizadə hansı arxivlərdə işləyib, hansı tədqiqatlar aparıb"

***- Fəzail müəllim, Yaqub Mahmudovun İrəvanla bağlı təklifini siz bir tarixçi olaraq necə dəyərləndirirsiniz?***

- Yaqub Mahmudovun qaldırdığı məsələ kifayət qədər tarixi, elmi, siyasi və məntiqi mahiyyət daşıyır. Bu məsələyə belə yanaşmaq olmaz ki, biz vaxtilə Milli Şuranın İrəvanın verilməsi barədə qərarını qəbul etməklə Ermənistanı işğal etmək istəyirik. Bu, sadəlövh yanaşmadır. Hələ biz ermənilərin işğal etdiyi torpaqları geri ala bilmiriksə, Ermənistana gedib çıxmaq da qeyri-mümkündür. İkincisi də, bu məsələ Qarabağ məsələsinin həllinə mane ola bilər fikri də yanlış yanaşmadır. Çünki sən, bu istəyi irəli sürüb-sürməməyindən asılı olmayaraq, vəziyyət dəyişmir. Yəni birdən bu məsələni qaldırarıq, ermənilərin xətrinə dəyər, bu da sadəlövh yanaşmadır. İrəvanla bağlı məsələ sadəcə olaraq dünya ictimaiyyətinə bir mesaj vermək məqsədi daşıyır. Bugünkü Azərbaycan dövləti Xalq Cümhuriyyətinin varisidir. Eyni zamanda bugünkü Azərbaycan parlamenti o vaxtkı parlamentli respublikanın ənənələrini bərpa və davam etdirir. Xalq Cümhuriyyəti dünyaya nümunə olan parlament üsulu ilə idarə olunub. Bu gün də Azərbaycan demokratik dövlət kimi özünün daxili və xarici siyasətini müstəqil həyata keçirə bilir. Deməli, söhbət ondan getmir ki, bizim hansısa ölkənin torpağına, paytaxtına yürüş etmək məqsədimiz var. Yaxud elə bu qərar qəbul olunan kimi, qüvvələr səfərbər olunacaq, hərbi qərar veriləcək və biz İrəvanı geri qaytaracağıq. Burada söhbət ondan gedir ki, vaxtikən Milli Şura qərar qəbul edib. Həmin qərarda maddələr var idi ki, erməni tərəfi bir də torpaq məsələsinə qayıtmayacaq, heç bir ərazi iddiasında olmayacaq. Keçən dövr ərzində - istər imperiya dövründə, istər müstəqillik dövründə erməni tərəfinin Milli Şuranın qərarına qarşı etimadsız münasibəti və bugünkü işğalçı mövqeyi bizə tarixi məsələlərə yenidən qayıtmaq üçün əsas verir. Beləliklə, Milli Şuranın qəbul etdiyi həmin qərarın sadəcə olaraq ləğvi məsələsi irəli sürülə və 29 may tarixli qərar ləğv oluna bilər.

***- Bu qərarın qəbulu bizə nə verəcək? Bunun hüquqi qüvvəsi olacaqmı?***

- Hüquqi qüvvəsi nə məna da olacaq? Həmin qərarın ləğvinin özü elə bir hüquqi qüvvədir. Bir əsrdən, yarım əsrdən sonra hansısa bir erməni tarixçisi Milli Şuranın qərarını götürüb irəli sürəndə bizim insanlar da onun ləğvi barədə qərarı ortaya qoyacaqlar. Qars, Ərdəhan müqavilələri kimlə bağlamışdı? Qars, Moskva müqavilələri necə olur bu gün qüvvədədir, Türkiyə tərəfi bu müqavilələrə əsasən daim erməni tərəfinin qarşısında sipər kimi dayanıb. Səbəbi odur ki, həmin o qərarlar qüvvədədir. İrəvanla bağlı qərar da gələcəkdə tarixçilərin əlində sənəd ola bilər. Bunun ikinci müsbət cəhəti də ondan ibarət ola bilər ki, Milli Məclisin qərarı bütün dünyaya mesaj verə bilər.

***- Belə çıxır ki, indiyədək biz həqiqətlərimizi dünyaya yetərincə çatdıra bilməmişik...***

- Elə bilirsiniz dünya bilir ki, İrəvan Azərbaycan şəhəri olub? Dünya bundan xəbərsizdir. İki il bundan qabaq ölkə prezidenti Avropa Şurasında çıxış edən zaman dedi ki, burada 47 ölkənin nümayəndəsi var. Digər ölkələrin nümayəndələri bilməsə də, İrəvandan olan deputatlar çox yaxşı bilir ki, İrəvan Azərbaycan şəhəri olub. Onlar Azərbaycan torpaqlarında bir dəfə erməni dövlətinin yaradılmasına nail olublar. Amma torpaqlarımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt razı olmayacağıq. Azərbaycan prezidenti avropalılara onların dilində bu sözləri dedi. Ancaq sanki onlar yenə də axıra qədər anlamadılar ki, İrəvan Azərbaycan torpağı olub. Amma bu, dünyaya bir mesaj oldu. İndi Milli Məclisin qərarı da dünyaya növbəti mesaj olar ki, ermənilər Azərbaycan torpağında dövlət yaradıb. Yəni bunun siyasi əhəmiyyəti də var. Bu mənada belə bir qərarın qəbul edilməsi işin xeyrinədir. Deyir islanmışın yağışdan nə qorxusu? Biz kimdən, hansı dövlətdən, nədən çəkinməliyik ki, birdən belə bir qərar qəbul edərik, bizə təhlükə yaranar. Milli Məclisin stenoqramı qaldırılsa, mən bu məsələni bu formada 2003-cü ildə qaldırdmışam. Sadəcə olaraq o dövr tamam başqa idi, Azərbaycanın iqtisadi durumu da başqa idi, həm də Ermənistan müəyyən məsələlərə dünyanı inandıra bilmişdi.

***- Amma siz də müşahidə edirsiniz ki, təşəbbüs birmənalı qarşılanmayıb, hətta həmkarlarınız arasında da sərt reaksiya verən, tənqid edənlər var...***

- Bu gün məsələnin qaldırılmasına müxtəlif yanaşmalar ola bilər, hər kəsin fikrinə hörmətlə yanaşıram. Amma mən məsələnin siyasi, hüquqi və məntiqi tərəfinə söykənərək belə bir fikri təsdiqləyirəm ki, belə bir qərarın qəbulu kifayət qədər böyük sensasiya doğurar.

***- Yeri gəlmişkən, Ermənistan konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiası əksini tapıb. Milli Məclisin bu qərarı həm də Ermənistanın bu iddiasına cavab olmazmı?***

- Bəli, tamamilə doğrudur. Ona görə də bundan çəkinmək lazım deyil.

### "Nuru Paşa Azərbaycana varlanmağa gəlməmişdi"

***- Zaman-zaman İrəvanın və ətraf ərazilərin ermənilərə verilməsinə görə Xalq Cümhuriyyəti günahlandırılır. Tarixi faktlar bu barədə nə deyir?***

- O dövrdə vəziyyət tamamilə başqa idi. Burada sadəcə, zamanı qınamaq olar. Cümhuriyyət liderlərini əfəllikdə, satqınlıqda qınamaq olmaz. Bu, zamanın diktəsi idi, özləri də onu "bəlalı qərar" adlandırırdılar. Özü də o zaman AXC üzvlərindən 3 nəfər qərarın əleyhinə olub. Dediyiniz kimi, Cümhuriyyəti bəzən qınağa çəkməyə başlayırlar ki, guya Cümhuriyyət liderləri İrəvanı Ermənistana verib. O vaxt müstəqillik qazanmaq üçün nəyisə qurban vermək lazım idi. Məsələn, insanın ayaq barmağı qanqrena olanda gedir həkimin yanına, həkim buna deyir ki, sənin barmağın, ya da topuqdan aşağı kəsilməlidir ki, yaşayasan. Əks təqdirdə bu mikroblar bədəninə keçəcək, öləcəksən. İnsan öz bədəninin hansısa nahiyyəsinin kəsilməsinə razılıq verir, qol çəkir ki, təki yaşasın. Cümhuriyyət liderləri həmin dövrdə çətin vəziyyətdə idilər. Özü də Azərbaycan dövləti Tiflisdə elan olunub. O vaxt vəziyyət necə idi? Mart soyqırımından sonra ölkə viran qalmışdı, bütün regionlarda erməni vahiməsi var idi. Bakıda da Şaumyan mart soyqırımından az sonra, aprel ayının 25-də Bakı Xalq Komissarlığı Sovetini yaratdı və hakimiyyəti götürdü. Moskvadan da kifayət qədər müdafiə olunurdu. 4 minə qədər erməni əsgəri var idi. Elə həmin qüvvələrlə o, Nuru Paşanın üzərinə yeridi.

***- Deputat həmkarınız Araz Əlizadənin Nuru Paşa, Osmanlı imperiyası barədə dedikləri ilə yəqin ki, tanışsınız. Deyib ki, Nuru Paşa Gəncədə oturub qızıl tələb edirdi və sair...***

- Tarixdən xəbəri olmayıb belə danışan adamlara mən xüsusi önəm vermək istəmirəm. Bunu hər hansı bir tarixçi desə, mən deyərdim ki, yəqin o dövrü zəif bilir. İndi hər yoldan ötən elə bir söz deyirsə, o demək deyil ki, onun ətəyindən yapışmaq lazımdır. Elə danışanlar ancaq tarixi bilməyənlərdir. Tarixi bilən ömründə belə sözlər deməz.

***- Ümumiyyətlə, tarixi mənbələrdə Hacı Zeynalabdin və Nuru Paşa arasında qızıl söhbətinin olması barədə faktlar varmı?***

- Nuru Paşa bura gələndə Azərbaycan vahimə içərisində idi, soyqırıma məruz qalmışdı, ermənilər Bakıda hökmranlıq edirdi. Hacı Zeynalabdin də bu dövlətin kişilərindən, böyüklərindən biri idi. Milləti xilas edən bir xilaskara Hacı Zeynalabdin Tağıyevin hansı mənfi münasibəti ola bilərdi? Təbii ki, o hökumətə, Azərbaycan Xalq Cümhuriyyətinə Hacı Zeynalabdin kifayət qədər maddi və mənəvi cəhətdən kömək etmişdi. Burada söhbət Nuru Paşaya rüşvət verməkdən getmirdi. Nuru Paşa da Azərbaycana varlanmağa gəlməmişdi. Bu, Türkiyənin Qafqaz siyasətinin tərkib hissəsi idi. Tutaq ki, bu, hansısa bir xristian dövlətinin Qafqaz siyasəti olsaydı, Azərbaycan heç vaxt ondan yarıya bilməzdi. Amma Türkiyənin Qafqaz siyasətinin içərisində müstəqil Azərbaycan var idi. Osmanlı Türkiyəsi Dərbəndin də daxil olduğu güclü bir Azərbaycan, bir türk, müsəlman dövləti yaratmaq istəyirdi. Xristianlar isə istəyirdilər ki, Türkiyə ilə Rusiya arasında bir xristian dövləti yaratsınlar. Azərbaycan Xalq Cümhuriyyəti yarandı, amma çox təəssüf ki, paralel olaraq Avropa dövlətləri həmin o xristian dövlətini də yaratdılar və iki türk dövləti arasında bir sipər çəkdilər. İrəvan da o istəkdən yarandı. İndi ayrı-ayrı şəxsləri qınayanlar tarixi bilməyənlərdir.

Bunlar kifayət qədər ciddi və əhəmiyyət daşıyan məsələlərdir. Belə məsələlərdə danışan zaman çox böyük məsuliyyət hiss etmək lazımdır. Mən Yaqub Mahmudovun bu fikrini dəstəkləyirəm. Milli Məclis bu məsələ ilə bağlı hər hansı bir qərar qəbul etsə, heç bir qınağa məruz qala bilmərik. Əslində Milli Şuranın İrəvanın verilməsi haqqında qərarını bütün dünyaya bəyan edib deyə bilərik ki, bax, bu, bizim torpaq, bizim şəhər olub.

***- Vaxtaşırı belə fikirlər də səslənir ki, bəzi ərazilər Ermənistana 99 illik, icarə şərtləri ilə verilib. Bu fikrin əsası varmı?***

- Şərtlərdən biri kimi irəli sürülə bilərdi. Amma o vaxt bu, əsas və həlledici amil deyildi. Dövlət yaranırsa, paytaxt verilirsə, hansı icarədən söhbət gedə bilərdi? Bu, mənasız bir məqamdır. Bunu gündəmə gətirmək lüzumsuzdur.

***- Ermənilərin təkcə Qarabağa deyil, Naxçıvana da iddiaları var. Görünür onlar daha uyğun tarixi şəraitin yaranmasını, Türkiyənin başının özünə qarışmasını gözləyirlər. Bu fikirlərlə razılaşırsınızmı?***

- Ermənistan öz ixtiyarında olan dövlət deyil, siyasi və iqtisadi cəhətdən özəlləşdirilib, böyük dövlətlərdən birinin təsiri altındadır. O, heç vaxt öz istəyi ilə bir addım ata bilməz. Çünki onun buna nə iqtisadi qüdrəti, nə hərbi gücü, nə də haqqı var. Ataların misalı var, "Arxalı köpək qurd basar". Günlərin bir günü erməni istəsə də, dünya artıq həmin dünya deyil. Nə də Ermənistanın arxasında durduğu dövlət heç vaxt Türkiyə ilə üz-üzə gəlmək istəyində olmaz.

***- Deputat Araz Əlizadə erməni məsələsinə görə Osmanlını günahlandırıb. Amma çox qəribədir ki, bu barədə danışarkən Rusiya amilinə toxunmayıb.***

- Birincisi, mən bilmirəm Araz Əlizadə hansı arxivlərdə işləyib, hansı tədqiqatlar aparıb və gəldiyi nəticələr belədir? Mən bilmirəm, bəlkə əlində onun əlində faktlar var, hansısa arxivlərdə işləyib, tədqiqatlar aparıb. İnsan danışmaq üçün ən azı hansısa bir tarixi məqama söykənməlidir. Rusiya amili dedikdə Valentin Pikulun "Favorit" əsəri var. Orada maraqlı məsələni qələmə alır. Deyir ki, İkinci Yekatrina dövründə onun ən yaxın adamlarından biri Qraf Patyomkin idi, onlar dostluq edirdilər. Qraf Patyomkinlə İkinci Çaritsa Yekatrinanın söhbətini qələmə alır. Qraf Çaritsaya deyir ki, işbacaran ermənilər paytaxt gözaltı edib. Soruşur haranı? Deyir İrəvan şəhərini. Onda da Ermənistan yox idi. Çaritsa soruşur ki, necə yəni paytaxt? Ölkə olmadığı halda, paytaxt necə ola bilər? Qraf cavab verir ki, bu gün yoxdur, sabah olacaq. Təsəvvür edin, bu söhbət 18-ci ərin ortalarında baş verib. Bir əsrdən sonra Yekatrina ilə Qraf Patyomkinin danışıqları reallaşdı, ermənilər gözaltı etdikləri paytaxta sahib oldular. Beləliklə, babalarının İrəvanla bağlı qurduğu planları nəvələri bir əsr sonra icra edə bildi.

***- Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması yalnız Çar Rusiyanın planı idi, yoxsa burada digər güclər də maraqlı idi? Məsələn, ingilislər?***

- Burada xristian dünyasının Türkiyə ilə Azərbaycan arasında əlaqəni qırmaq və vaxtilə Avrasiya qitəsində mövcud olan türk xəttini sındırmaq niyyəti var idi. O xətt bir neçə dəfə sınıb. Məsələn, Orenburq Qazaxıstandan ayrıldı, Sibir türkləri assimlyasiyaya uğradıldı. Həştərxanda türklər assimlyasiyaya uğradıqdan sonra orada çavuşlar və digərləri türk dünyasından təcrid olundu. İrəvan alındı, Türkiyə ilə Azərbaycan arasında rabitə kəsildi. Bu azmış kimi, Zəngəzurdan keçid var idi, Türkiyə və Azərbaycan arasında quru yol idi, Zəngəzur ermənilərə verildi, o yol kəsildi, türk xətti ordan sındı. Beləliklə, bu, Sibirdən başlayaraq Orta Asiyaya qədər bütöv bir türk xəttinin sındırılması uğrunda gedən mübarizə idi. İrəvan da, Zəngəzur da bax, həmin planın tərkib hissəsi idi. Çox təəssüf ki, bu gün tarixdən danışanların bir qrupu tarixdən xəbəri olmayanlardır. Üstəgəl, söz məsuliyyəti, ictimai qınaq yoxdur, kimin ağzına nə gəlir, danışır.

❑ **Elşad PAŞASOY**



**Fəzail İbrahimli:** "Elə bilirsiniz dünya bilir ki, İrəvan Azərbaycan şəhəri olub?"



# İvanka xanımın muncuqları

Zamin HACI
zaminhaci@gmail.com

"Siyasətlə maraqlanmamağın cəzası sizdən daha axmaq olanlar tərəfindən idarə edilməkdir"

***(Platon)***

**Görkəmli yapist deputatlardan Səyavuş müəllimə naməlum gecə zənglərinin Rabitə Nazirliyindəki məlum mafiya tərəfindən təşkili, bu işdə ermənilərin əli olması haqda yazımdan az sonra yoldaş Novruzov özü də bu ehtimalı təsdiqlədi. Doğrudan da xüsusi xidmətlərimiz bu versiya üzərində dərindən işləməlidir, bəlkə azğın düşmənlərimiz intellektual deputatımızın beyniniz oğurlayıb öyrənmək işində ermənilərin başqa planetdən gələnlərlə əlbir olması sübut edilmiş faktdır. Hətta mənim yadıma gəlir, 90-cı illərdə bir deputatımızı cəbhə xəttində oğurlayıb ondan xaş bişirdilər, dedilər guya xaş da erməni yeməyidir.**

Qayıdaq daxili siyasətə. Donald Trampın başı üstündən qara buludlar əskik olmur. Təsəvvür elə, yazığın prezidentliyinin heç bir ayı tamam olmayıb, ancaq dünyanın yarısı bunun əleyhinə getməkdədir. ABŞ-ın özündə isə kişinin sözünü ümumiyyətlə fındıq yerinə qoyan yoxdur. Gah prokurorlar əleyhinə çıxır, gah məhkəmə miqrantlar əleyhinə qərarını ləğv eləyir. Düzdür, baş prokuroru buna görə işdən qovdu, meyvə-yumurta-tikinti biznesini də əlindən aldı, ancaq qarantiya yoxdur ki, yerinə gələn yaxşı adam olacaqdır. Dünənə qədər xalq artisti, prezident təqaüdü almaq üçün növbəyə duran VızDrama-nın (Vaşinqton Milli Dram teatrı qısa şəkildə belə yazılır - Z.H.) artistləri mitinqə çıxıb "İstefak!" deyirlər. Elə bil Respublikaçılar Partiyasının bulvardakı bütün konsertlərində puluna minnət mahnı oxuyan Madonna olmayıb.

Bir nəfəri də Tramp nazir qoymaq istədi, adam dedi ki, nazir işləməyə vaxtım yoxdur, gül kimi biznesim var, neyimə lazım gəlim xalqa qulluq edim. Biabırçılığa bax. Niyə bunlar bizim azərbaycanlı nazirlərdən, onların xalqa xidmətindən dərs almırlar?

Hələ bu harasıdır, sən təsəvvür elə, Amerikada bir dükan prezidentin qızı İvanka xanımın mallarını satmaqdan imtina edibdir! Prezidentin qızı ey, a kişi! Yazıq qız nəsə muncuq-broşka-zad istehsal eləyirmiş. İndi dükan deyir satış aşağı düşüb, dədən prezidentdir, üstəlik ondan xoşumuz gəlmir, gəl mallarını apar.

Belə də dövlət olar? Belə də hörmətsizlik olar? Yenə bu qız yeyib doymuşdu, başqası gəlsə nə olacaq? Guya sən prezident olsan qızın acından ölməlidir? Nəsə, bu Amerika düzələn deyil, elə Qodzilla bunu yaxşı dağıdırdı.

Yazını sadiq oxucularımızdan Yusif Qrızlının məktubu ilə bitirirəm: "M.Ə.Rəsulzadənin anadan olduğu 31 yanvar günü bu yaxınlarda dinlədiyim bir əhvalatı yadıma saldı. Bir neçə il əvvəl heykəltəraş Şıxəli Təhməzov Quba rayonunun mərkəzində, Nizami adına parkda nəinki Azərbaycanda, türk-müsəlman dünyasında hər kəs tərəfindən tanınan mütəfəkkirlərin, ədiblərin büstlərini hazırlayıb qoyur. İlkin olaraq bu işi Quba qəbristanlığı ərazisində görür. İşin axırına az qalmış Ş.Təhməzov görür ki, Ramazan bayramıdır, insanlar ölülərini yad etmək üçün qəbristanlığa axına başlayıblar. Heykəltəraş bu mənzərəni görüb alətlərini yığıb öz valideynlərini yad etmək qərarına gəlir. Bir anlıq hazırladığı büstləri seyr edərkən hər kəsin ağlına gələ bilməyən bir ideya düşüncəsinə hakim olur. Belə qərara gəlir ki, büst heykəllərin hər birinə ayrılıqda yasin oxutdursun. Qəbristanlığın ruhanisini çağırıb, öz halal vəsaiti hesabına bu ayini icra edir. Şıxəli Təhməzov 1992-cı ilin ortalarında doğulduğu Xaçmaz rayonu Qıraqlı kəndində ata evinin həyətində zamanın və tarixin qiymətini alan, tarixi şəxsiyyət olan Məhəmməd Əmin Rəsulzadənin böyük heykəlini yaradıb. Çox təəssüf ki, həmən heykəli layiq olduğu yerə qoymaq qismət olmadı, neokommunistlər siyasi hakimiyyəti zəbt etdilər".

# Azərbaycan Qərbə "yumşaq inteqrasiya" xəttini seçir

**Gürcüstan Avropa Birliyi (AB) ilə viza rejiminin ləğvi qərarını bayram edir. Gürcü xalqının buna tam haqqı çatır. Çünki illərdir Avropaya inteqrasiya yolunda çəkdiyi əziyyət artıq bəhrəsini verməkdədir. AB ilə əlaqələrin dərinləşməsi isə Qərbin ən qüdrətli hərbi-siyasi bloku olan NATO-ya üzvlük qapılarının açılması deməkdir. Öz növbəsində NATO-ya üzvlük Gürcüstanın ən etibarlı təhlükəsizlik sisteminə qoşulması, Rusiya təhdidlərinə qarşı real zəmanət alması anlamı verəcək. Gürcülərin sevinci əslində daha çox bununla bağlıdır.**




## Bakı və Brüssel anlaşma ərəfəsində - prezidentin kritik Avropa səfəri

### Gürcüstana viza rejiminin ləğvinin ardınca Avropa Birliyi Azərbaycana diqqəti artırıb; ikitərəfli münasibətlərdə daha yüksək mərhələyə keçid sürətlənir; Bakı və Tiflisin Rusiya təsirindən daha da uzaqlaşması Kremlin Güney Qafqaz siyasətini sərtləşdirə bilər...

Əlbəttə ki, AB-nin hədəfi təkcə Gürcüstan deyil, həm də Cənubi Qafqazın digər iki ölkəsi - regionun iqtisadi ağırlıq mərkəzi sayılan Azərbaycan və təəssüf ki, həm də Ermənistandır. Lakin işğalçı ölkənin Rusiyanın etibarlı satelliti olması, onun Avrasiya Birliyi, Gömrük İttifaqı və KTMT-də təmsil olunması istər-istəməz İrəvanın Avropaya yaxınlaşmasını indiki halda, mümkünsüz edir - hərçənd Ermənistan Kremlin yanında öz dəyərini qaldırmaq üçün ara-sıra Brüsselə (AB, NATO-ya) reveranslar etməyi xoşlayır. Qalır "bloklara qoşulmayan" Azərbaycan.

*****

Bu arada Azərbaycan prezidenti İlham Əliyevin Avropa Birliyi ilə yeni tərəfdaşlıq münasibətlərinə dair sazişin şərtlərini müzakirə etmək üçün Brüsselə gedəcəyi xəbəri yayılıb (Prezident artıq Brüsseldədir-red.). Qərb mənbələrinin məlumatına görə, ölkə başçısı bu həftənin əvvəli, daha dəqiqi, bazar ertəsi, yəni bu gün Brüsseldə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerlə görüşəcək.

Görüşdə AB ilə Azərbaycan arasında yeni tərəfdaşlıq münasibətlərinə dair sazişin şərtlərinin müzakirəsi gözlənilir. Avropa Komissiyasının xarici məsələlər üzrə Xidmətinin direktoru Tomas Meyr-Hartinq bununla bağlı bildirib ki, ötən həftə təşkilatın iki yüksək rütbəli rəsmisi Bakıda İlham Əliyevlə görüşərək ikitərəfli münasibətləri müzakirə edib. Meyr-Hartinq Azərbaycanı "mühüm tərəfdaş" adlandırıb.

Yada salaq ki, bir müddət öncə Azərbaycan AB ilə "Şərq Tərəfdaşlığı" layihəsi çərçivəsində assosiasiya sazişindən imtina eləsə də, Brüsselə qarşılıqlı maraqlara əsaslanan üstün tərəfdaşlıq razılaşmasının imzalanmasını təklif edib. Əvvəllər rəsmi Brüssel bu variantla razı olmasa da, daha sonra Azərbaycanla ikitərəfli tərəfdaşlıq sazişinə dair danışıqlara başlamağa razılaşıb.

Beləliklə, qarşılıqlı əlaqələrin inkişafında mövcud şərtlər fonunda ən mümkün variant seçilib. Bu, o deməkdir ki, Azərbaycan-AB əlaqələri qonşu Gürcüstan səviyyəsində olmasa belə, hər halda dinamikdir və indikindən daha konkret, daha yüksək, daha etibarlı fazaya keçə bilər. Belə demək mümkünsə, Bakı Avropaya "yumşaq inteqrasiya" xətti seçib ki, bu "yumşaqlıq" da görünür, ilk növbədə Rusiyanı güclü qıcıqlandırmamaq məramından irəli gəlir.

*****

Ancaq iki "Qarabağ problemi" olan və Rusiyanın birbaşa hərbi təcavüzü ilə üzləşən Gürcüstan nümunəsi göstərdi ki, Bakının xofuna ciddi əsas yoxdur. Əksinə, təcrübə deyir ki, Moskvadan çəkindikcə, o, özündən zəiflərin üstünə daha arxayın şəkildə gəlir, onları saya salmır. Ayrı sözlə, söhbət Azərbaycan üçün yeni və güclü təhlükəsizlik sistemi qazanmaqdan gedir. Çünki Rusiya ilə son 23 illik "dost-tərəfdaşlıq" siyasəti köklü problemlərimizin, o sırada Qarabağ məsələsinin həllinə yardımçı olmadı.

Müxtəsəri, milli maraqlarımız diktə edir ki, Azərbaycan AB-yə doğru daha qətiyyətli addımlar atsın. Yerli siyasi təhlilçilər də bu yöndə nikbindir. Məsələn, politoloq Elxan Şahinoğluna görə, Azərbaycanın da Gürcüstan kimi şansı var ki, yaxın illərdə AB ilə öz arasında məsafəni xeyli dərəcədə qısaltsın: "Keçən həftə Avropa Komissiyasının qonşuluq və genişlənmə danışıqları üzrə baş direktoru Kristian Daniel-sonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etmişdi. Avropalı rəsmi prezident İlham Əliyevlə və xarici işlər naziri Elmar Məmmədyarovla görüşdülər. Bu görüşlər zamanı Azərbaycan və Avropa Birliyi arasındakı ikitərəfli münasibətlərin hazırkı səviyyəsi və gələcək inkişaf istiqamətləri, Azərbaycanın "Şərq Tərəfdaşlığı" proqramında iştirakına dair ətraflı fikir mübadiləsi aparıldı. Hazırda ən vacib məsələ Avropa İttifaqı ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair sazişin hazırlanmasıdır", - deyə ekspert qeyd edib.

Onun sözlərinə görə, hər iki tərəfdən nümayəndə heyətləri artıq formalaşıb və yaxın müddətdə danışıqlar başlanacaq: "Bu sənəd imzalansa və tərəflər üzərinə götürdükləri öhdəlikləri yerinə yetirsələr, Avropa İttifaqı Azərbaycan vətəndaşlarına tətbiq etdiyi vizanı ortadan qaldıra bilər. Ancaq bunun üçün Azərbaycan hələ uzun yol keçməlidir. Hələliksə Azərbaycan vətəndaşlarının gürcülərə yaxşı mənada paxıllıqları tutacaq. Çünki gürcülər maneəsiz Avropa ölkələrinə səfərlər edəcək, müqavilələrə bağlayacaq, təhsil alacaqlar, Azərbaycan vətəndaşları isə əvvəlki tək alçaldıcı şəraitdə Avropaya getmək üçün səfirliklərin quyruqlarında dayanacaq, müxtəlif sənədlər hazırlamaq məcburiyyətində qalacaqlar".

Bəs Gürcüstana qarşı Avropa İttifaqının viza rejimini ləğv etməsi, bu ölkənin Qərbə daha da yaxınlaşması, eyni zamanda Azərbaycanın "yumşaq inteqrasiya" xətti Rusiyanı qəzəbləndirə bilərmi? E.Şahinoğlu deyir ki, bu kimi gəlişmələr, Rusiya hakimiyyətini şəksiz ki, narahat edəcək: "Çünki digər ölkələr də Gürcüstan kimi Avropa İttifaqı ilə yaxınlığa can atacaqlar. Məsələn, bu xüsusda Azərbaycanda və Ermənistanda diskussiyalar artacaq. Ermənistan və Azərbaycan vətəndaşları Rusiyaya maneəsiz gedib-gələ bilirlər. Rusiyadan daha çox inkişaf etmiş Avropaya isə sərbəst gediş-gəliş imkanları yoxdur. 3 il öncə Ukrayna vətəndaşları Avropa İttifaqı ilə yaxınlaşmaq istəyi ilə meydanlara çıxdı və hakimiyyəti devirdilər. Buna cavab olaraq da Rusiya Ukraynanı parçaladı. İndi də Rusiya əlindən gələni edəcək ki, Gürcüstanı cəzalandırsın. Onsuz da Rusiya Abxaziya və Cənubi Osetiyanı ilhaq etməklə Gürcüstanı parçalayıb. İndi isə çalışacaq ki, Gürcüstan mallarının Rusiyaya daxil olmasını məhdudlaşdırsın".

*****

Amma, necə deyərlər, "Canavardan qorxan gərək meşəyə getməsin". Və yaxud "Qorxan gözə çöp düşər", deyib müdriklər. Qorxu isə doğru-düzgün siyasi qərarlara mane olan faktorlardan sayılır - üstəlik, elə bir zamanda ki, Moskva onsuz da Azərbaycana ən böyük pisliyini edib...

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017

# Lapşin məsələsi yekunlaşır - bu gün Azərbaycana verilir

## Belarus Ali Məhkəməsinin bloggerlə bağlı son qərar çıxaracağı gözlənilir; ekspertlər Moskvanın bu məsələdə təkidinin arxasında dayanan məkrli məqsəddən danışdılar...

**Azərbaycan qanunlarını kobud şəkildə pozaraq dəfələrlə işğal altındakı Dağlıq Qarabağa getdiyi və separatçı rejimi açıq şəkildə təbliğ elədiyi üçün barəsində cinayət işi açılan, Minskdə həbs edilən və Azərbaycana ekstradisiya qərarı çıxarılan blogger Aleksandr Lapşinin ekstradisiya qərarının ləğvi üçün apelyasiya şikayətinə Belarus Ali Məhkəməsi bu gün - fevralın 6-da baxmalıdır. Prosedura görə, qərar bu gün, ya da uzağı, 3 gün ərzində verilə bilər. Ancaq Lukaşenkonun ekstradisiyanı tezləşdirməkdə maraqlı olması söyləməyə əsas verir ki, hökm daha iki gün ləngiməyəcək.**

A.Lapşinin üçlü vətəndaşlığa malik olması (İsrail, Rusiya, Ukrayna) onunla bağlı məsələnin məntiqi sonluğa çatmasını müəyyən mənada yubadır. Xüsusilə Rusiya bu məsələdə hay-küy salıb. Moskva Lapşinin Azərbaycana verilməməsi üçün Belarusa çağırış və təzyiq edir.

Rusiya xarici işlər naziri Sergey Lavrovun ardınca Rusiyanın ombudsmanı Tatyana Moskalkova bənzər bəyanatla çıxış edərək, Lapşinin ekstradisiyası əleyhinə olduğunu söyləyib. Onun sözlərinə görə, Rusiya Konstitusiyası ölkə vətəndaşının üçüncü dövlətə verilməsini qadağan edir. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova isə məsələ ilə bağlı daha sərt mövqe sərgiləyib, faktiki surətdə Minski hədələyib.

Lakin Rusiya rəsmiləri nədənsə unudurlar ki, Belarusda Rusiyanın deyil, Belarusun konstitusiyası qüvvədədir. Həmin konstitusiya isə beynəlxalq qanunları belə pozan A.Lapşinin Azərbaycana təhvil verilməsini tamamilə mümkün sayır. Hərçənd o da artıq etiraf edilməlidir ki, məsələ indi həm də siyasiləşib. Yəni, yekun qərar eyni zamanda rəsmi Minskin, özəlliklə də prezident Aleksandr Lukaşenkonun iradəsindən asılı vəziyyətə gəlib.

Ehtimal edilir ki, Moskvadan Bakıya da Lapşin məsələsində geri çəkilmək üçün təzyiqlər başlana bilər. Odur ki, bu məsələdə Bakı ilə Moskvanın da münasibətlərində gərginlik yaranacağı istisna deyil. Ekspertlərin fikrincə, Lapşin məsələsinin Azərbaycanın istədiyi kimi sonuclanması Minskin nə dərəcədə iradə göstərməsi ilə yanaşı, Bakının da Moskva qarşısında necə davranmasından xeyli dərəcədə asılıdır. Belarus prezidenti Aleksandr Lukaşenkonun hüquqa əsaslanan və Azərbaycandan yana açıqlama verdiyi bəllidir. Moskva isə təzyiqlərini şübhəsiz ki, davam etdirir.

Belə əziyyətdə Ali Məhkəmə də Lapşinin şikayətini rədd edəcəkmi? Lapşin məsələsi Moskva ilə Bakı arasında gərginlik yarada bilərmi? İsrailin Rusiya qədər hay-küy salmadığı müşahidə olunur. Nədən Rusiya bu məsələdə israr edir?

Politoloq Elçin Mirzəbəyli bildirdi ki, Moskva Lapşinlə bağlı məsələyə siyasi müstəvidən və imperiya ambisiyaları çərçivəsindən yanaşır. Digər tərəfdən, Kreml Lapşinin ekstradisiyasının presedent yarada biləcəyindən narahatdır. Ona görə Lapşinin Azərbaycana verilməməsində təkid edir: "Kimsəyə sirr deyil ki, erməni işğalı altında olan Azərbaycan torpaqlarına ən çox səfər edən Rusiya vətəndaşlarıdır. Bu günədək Rusiya ilə münasibətlərimizdə problem yaranmasın deyə, baş verənləri görməzdən gəlmişik. Lapşinlə bağlı məsələ isə sırf hüquqi presedent yaratdığı üçün oxşar faktlarla bağlı siyasi manipulyasiya etmək çətin olacaq. Məsələnin Rusiyanı qıcıqlandıran başqa bir tərəfi ilə eyni ittifaqda olan Belarus tərəfindən verilməsidir. Moskva bu fakta özünün nüfuz dairəsində saydığı bir coğrafiyada reputasiyasına vurulan zərbə kimi yanaşır. Lukaşenko üçün də bu məsələ həm Azərbaycanla münasibətlərin inkişafı, həm bir lider kimi öz məninin növbəti dəfə təsdiqi, həm də Rusiyaya boyun əymədiyini nümayiş etdirmək üçün çox vacibdir. Lukaşenko xarakter adamıdır və geri çəkilməyəcək. Putin MDB məkanındakı xarizmatik liderləri əzmək istəyir. Bunu görməmək mümkün deyil. Bu baxımdan geriyə yol olmadığını düşünürəm".


Aleksandr Lapşin

Politoloqun fikrincə, Belarus Ali Məhkəməsi də Minsk məhkəməsinin Lapşinlə bağlı qərarını qüvvədə saxlayacaq. Lapşin Azərbaycana veriləcək: "Bunun başqa alternativi yoxdur".

Lapşin məsələsində İsrailin Rusiya qədər israrlı olmamasının səbəbinə gəlincə, E.Mirzəbəyli söylədi ki, bu, Tel-Əvivin baş verənlərin mahiyyətini başa düşməsi, Azərbaycanla bağlı münasibətlərə verilən önəm və regionda baş verəcək proseslərlə əlaqədar geniş təsəvvürlərə malik olması ilə bağlıdır: "Biz indi çox önəmli bir mərhələyə qədəm qoyuruq. MDB məkanında mərkəzdənqaçma prosesləri sürətlənəcək. Çünki Rusiyanın artıq bu prosesləri tam nəzarətdə saxlamaq imkanı yoxdur. Bunu MDB məkanında da, daha geniş miqyasda da hiss edirlər".

AMİP-in beynəlxalq əlaqələr katibi Elşən Mustafayev isə bildirdi ki, Rusiyanın Lapşinin həbsindən sonra hay-küy qaldırması, Belarusa təzyiqlər etməsi Qarabağ konfliktində tərəf olduğunu bir daha ortaya qoydu: "Lavrovun məlum bəyanatından qısa müddət sonra növbəti dəfə Azərbaycanın müstəqilliyinə, qanunlarına olunan növbəti hörmətsizliyin şahidi oluruq. Lapşin məsələsi sıradan bir məsələ deyil. Azərbaycanın razılığı olmadan Qarabağda yüzlərlə insan olub. Amma onların hamısının haqqında axtarış elan olunmayıb. Əksəriyyəti yalnız "qara siyahı"ya salınıb. Lapşin isə qanunsuz səfərindən sonra konkret olaraq qondarma respublikanı müstəqil dövlət kimi təbliğ edib, terrorçulara haqq qazandırıb, bununla da Azərbaycanın milli təhlükəsizliyinə qarşı fəaliyyətdə olub. Ortada bu faktların olmasına görə də məhz Belarus onun saxlayıb və ekstradisiya olunmasına qərar verib. Bir neçə gün öncə Lukaşenko keçirtdiyi böyük mətbuat konfransında rusiyalı jurnalistin bu məsələ barəsində verdiyi suala faktlarla, əsaslandırılmış cavab verdi. Bu cavabdan o məlum oldu ki, Belarus Ali Məhkəməsinin ekstradisiya qərarının qüvvədə saxlayacağı gözlənilir. Bu arada Lapşinin özünün və anasının əfv olunma xahişi ilə Azərbaycana müraciət etməsi də onu göstərir ki, məsələ qapanıb. Əgər əfv olunacaqsa belə, bu, Azərbaycanda ola bilər. İsrail tərəfi də bu məsələ ilə maraqlanıb. Görünür ortada olan faktlar o qədər əsaslıdır ki, Belarus hökumətindən heç-bir şey tələb etməyiblər. Hələ ki, Rusiya yalnız Belarusla bu barədə danışıqlar apardığını təsdiqləyib. Eyni zamanda ola bilsin ki, Bakı ilə də qeyri-rəsmi təmasları olub və yaxud olacaq. Ola bilsin Moskva Lapşin Bakıya ekstradisiya edildikdən sonra təzyiqlərə başlasın. Hesab edirəm ki, istənilən halda Moskvanın bu hüquqi məsələyə müdaxiləsinə yol verilməməlidir".

Ekspertin sözlərinə görə, Rusiya bilir ki, bu presedent gələcəkdə Azərbaycanın işğal olunmuş rayonlarına qanunsuz səfər etmək istəyənləri qorxudacaq, ora olan marağı azaldacaq, işğalçı separatçı rejimin rəhbərlərinin mövqelərini zəiflədəcək, əhalisini ruh düşkünlüyünə gətirəcək, o cümlədən Serj Sarkisyan hakimiyyətini də daxildən zərbələr altında qoyacaq, Azərbaycan tərəfinin isə mənəvi üstünlüyünə gətirəcək: "Rusiya status-kvonun dəyişməsini istəmədiyi kimi, mənəvi üstünlüyün də dəyişilməsini istəmir".

❑ **Etibar SEYİDAĞA**

# ABŞ "Tramp-holdinq" olacaqmı?



**Xalid KAZIMLI**

**Son günlər dünyada təəccüb doğuran impulslar əsasən Amerika Birləşmiş Ştatlarından gəlir. Əvvəlcə hamı prezident Donald Trampın öz seçkiqabağı vədlərini dərhal yerinə yetirməyə çalışmasına təəccübləndi. Daha sonra isə insanlar ABŞ dövlətinin sütunu olan nazirliklərin və məhkəmələrin bu qərarlara qarşı çıxmasına və prezidentə əngəl olmasına heyrətləndi.**

Əslində isə burada heç bir təəccüb doğuracaq məsələ yox idi. Tramp özündən əvvəlki prezidentliyə namizədlərdən və prezidentlərdən öz ekstravaqantlığı, sinikliyi, dəlisovluğu ilə çox fərqlənən biridir və öncədən məlum idi ki, bu adam vəzifəsini icrasına başlayanda hamını təəccübləndirən hərəkətlər edəcək. Necə deyərlər, bu hələ jurnalıdır, dünya əsl filmə (o triller janrında da ola bilər, tragikomediya janrında da) bir müddətdən sonra baxacaq.

Trampın istədiyini edə bilmədiyinə, qarşısına əngəllər çıxarılmasına təəccüb edənlər isə, görünür, ABŞ idarəetmə sistemini, bu ölkədə hakimiyyət qollarının müstəqilliyini, dövləti quran təsisçi ataların qoyub getdiyi düsturların işləkliyini, qanunların aliliyinə qoyulan hörmətin miqyasını bilməyənlərdir.

Bu da öncədən bəlli idi ki, Tramp özbaşına deyil, özü boyda alov topu olsa da, yalnız özünü yandıra bilər.

Göründüyü kimi, ümumi şəkildə adına "dərin dövlət" deyilən idarəetmə mexanizmləri yeni prezidentə hələ işinin ikinci həftəsindəcə "bu dövlətin hökmdarı, padşahı, sultanı sən deyilsən" dedi və Tramp xeyli təəccübləndi. Bu, hələ Trampın əl-qolunun sarınmasına dair birinci epizoddur, ardı gələcək. Əgər o, tutduğu xətti davam etdirsə, bir gün impiç ediləcəyi gün uzaqda deyil. Zatən, bu söhbətlər Trampın hələ oval kabinetə girməsindən öncə başlayıb.

ABŞ-ı dünyanın ən qüdrətli, ən varlı, ən azad ölkəsi edən də məhz budur. 50 ştatı vahid orqanizmdə birləşdirən bu dövlət ona görə güclüdür ki, orada bir adamın öz iradəsini bütün millətə diktə etməsinə imkan vermirlər. Şahın qanun olmadığı, qanunun şah olduğu dövlətlərin tipik nümunəsi ABŞ-dır.

Tramp hələ də hansı dövlətə rəhbərlik etdiyinin fərqində deyil. O, elə bilirdi ki, prezident kürsüsündə oturan kimi bütün ölkə və bütün dünya onun qabağında mil duracaq, bir sözünü iki edən olmayacaq. Trampın digər ölkələrin rəhbərləri ilə qaba davranışı, onlarla ərkyana danışması, hətta sözlərini kəsib telefonu üzlərinə qapatması bu üzdən idi. Adam özünü dünyanın ağası sayırdı.

Ancaq iki həftə keçmədi ki, ona ABŞ-ın "Tramp-holdinq" olmadığını, dövləti ailə şirkəti kimi idarə edə bilməyəcəyini başa saldılar, daha dəqiqi, başa salmağa çalışdılar. Hiss olunur ki, o, hələ müqavimət göstərir, iradəsini yerinə yetirməyənləri cəzalandıracağını, hamını ram edəcəyini düşünür.

Böyük ehtimalla o, bunu edə bilməyəcək. Həm ABŞ daxilindən, həm də dünyadan, xüsusilə də ABŞ-ın ənənəvi müttəfiqlərindən onun bu sayaq sıradışı hərəkətlərinə müqavimət böyükdür və güclənməkdədir.

Bu gün birmənalı şəkildə demək olar ki, 2016-cı ilin noyabrında ABŞ xalqının seçimi yanlış olub. Trampın seçilməsi və işə başlaması ilə dünyanın ən qüdrətli dövlətinin sütunları görünməmiş ağırlıq altına girib.

İndi dövlətin qoruyucu mexanizmləri tam gücü ilə işə düşməlidir ki, ölkə və dünya bu mərhələdən daha az itki ilə çıxsın.

ABŞ-ın əzəli düşməni Rusiyada yeni prezidentlə bağlı təntənə və eyforiyanın səbəbi də budur. Onlar aydın şəkildə başa düşürlər ki, Tramp öz hərəkətləri ilə ABŞ dövlətinin sütunlarını laxladır və bu, dünyanın ən qüdrətli dövlətinin çöküşünə gətirə bilər.

Trampın diktatorluq meylləri, ambisiyaları bir daha göstərdi ki, hakimiyyət bölgüsü olmayan, tək adamların idarə etdiyi dövlətlər necə təhlükəlidir. Bir adam gəlir, bütün məsələlərdə öz iradəsini yeridir, milyonlarla insan isə onun köləsinə çevrilir. O, dövləti uçuruma aparanda da heç kəs qabağında durmur. Kollektiv idarəetmələrdə, hakimiyyət bölgüsü olan yerdə isə "tək adam"ların şəltəsi işləmir, onlar hər zaman düz yolla getməyə məcburdurlar. Çünki milləti uçurumdan qoruyan mexanizmlər var.

Görünən odur ki, Tramp ABŞ-da o mexanizmləri sarsıtmağa çalışsa, mexanizm Trampı əzəcək.

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017



# Dərmanlar ərzaqdan da sürətlə bahalaşır

## Alıcılar giley edir, satıcılar "bizdən asılı deyil" deyirlər, həkim ekspert isə çıxış yolunu göstərir...

**Dolların rəsmi məzənnəsinin gündən-günə artması bütün sahələrdə bahalaşmaya səbəb olduğu kimi, əczaçılıqdan da yan keçməyib. Hazırda apteklərdə dərmanların qiyməti durmadan artıq. Paytaxtın mərkəzində fəaliyyət göstərən bir neçə aptekdə apardığımız müşahidələr də göstərdi ki, qiymətlər günbəgün artır. "Yeni Müsavat"ın müxbiri həmçinin hazırda Azərbaycanın dərman bazarındakı durumla bağlı satıcılar və alıcılarla həmsöhbət olub.**

Paytaxtın mərkəzindəki apteklərin demək olar ki, hamısında kifayət qədər alıcılara rast gəlmək mümkündür. Mövsümi xəstəliklərin yayılması, eyni zamanda dərmanların satışında yaranan problemlər, bəzi dərmanların tapılmaması, habelə daha ucuz almaq istəyi insanların aptek-aptek dolaşmasına səbəb olub.

İlk növbədə "Avropmed" şirkətinin əsas mərkəzi apteklərindən birinə baş çəkdik. İçəridə təxminən 10 nəfərdən çox alıcı vardı. Söhbət etdiyimiz alıcıların demək olar ki, hamısı qiymətlərin həddindən artıq yüksək olmasından şikayətləndi.

Uşağına dərman almağa gələn Kərim adlı şəxs qiymətlərin bir ay öncəsi ilə müqayisədə çox fərqləndiyini dedi: "Həkim uşağın dişi üçün maz yazıb. 5 ml həcmi olan kiçik maza 8 manat verdim. Uşaq dərisi üçün müalicəvi kremi hər zaman 7 manata alırdım, indi 10 manatdır. Ən sadə vasitələrin - spirtin, yodun, vazelinin belə qiyməti bahalaşıb. Əgər bunlar ölkədə istehsal olunursa, niyə qiyməti artır?"

Aptekdə satıcı işləyən Namiq Kərimov da dərmanların gündən-günə bahalaşdığını etiraf etdi: "Bildiyiniz kimi, dərmanların 90 faizi xaricdən gətirilir. Azərbaycanda yalnız bəzi dərmanlar və tibbi vasitələr və bitki çayları istehsal olunur. Ən çox 3 ölkədən dərman idxalı həyata keçirilir: Almaniya, Polşa və Hindistan. Almaniya dərmanları keyfiyyətli olsa da, çox bahadır. Keyfiyyətinə görə isə digərlərindən yaxşıdır. Keyfiyyətcə ən zəifi Hindistan dərmanlarıdır. Ancaq alıcıların maddi durumuna görə bunları da idxal edirlər ki, Avropa dərmanına imkanı çatmayanlar ala bilsin. Avro və dollar bahalaşdıqca qiymətlər də qalxır. Bütün apteklərdə qiymətlər mərkəzdən tənzimləndiyi üçün onların dediyi qiymətlərlə işləyirik".

Satıcı bu vəziyyətdən yeganə çıxış yolu kimi, ölkədə əczaçılıq şirkətlərinin sayının artmasını göstərdi: "Bu məsələdə bizim əlimizdən heç nə gəlmir. Dərman hansı qiymətə gəlirsə, biz də üzərinə 10-20 qəpik əlavə edib satırıq. Yaxşı olar ki, ölkədə dərman istehsalı olsun. Yerli şirkətlər yaransa, dərmanlar nisbətən ucuz başa gələr".

Evdə xəstə valideynlərinin olduğunu deyən başqa bir alıcı isə dərmanların son günlər 20 faiz bahalaşdığını bildirdi: "Mən uzun illərdir valideynlərimə görə apteklərdən asılıyam, hər ay dərman alıram. Heç vaxt indiki kimi bahalaşma olmamışdı. Adicə analgin iynəsi 1 manatdan aşağı idi, indi 2.50 manat olub. Uşaqlara aldığım "Suprastin", "Ketotifen", "Pulmokson", "Nurofen" hamısı bahalaşıb. 4 manata satılan dərmanlar 5-6 manat olub".

Baş çəkdiyimiz başqa bir aptekdə isə dərmanların keyfiyyəti ilə maraqlandıq. Satıcılar bildirdilər ki, bahalaşmadan sonra daha çox keyfiyyətsiz dərmanlar apteklərə ayaq açıb. Bəzi dərmanlar var ki, alıcılar istifadə edir, sonra gəlib bizə heç bir nəticənin olmaması ilə bağlı şikayətlənirlər. Ancaq dərmanın keyfiyyətinə biz nəzarət etmirik. Ölkəyə buraxılan bütün dərmanlar yoxlanılır. Ancaq bu yoxlamanın nə dərəcədə ciddi aparıldığını biz deyə bilmərik. Bu cəmiyyətə açıq olmayan bir prosesdir".

Tanınmış həkim Seyfəddin Əsəd də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, yalnız Azərbaycanda yeni əczaçılıq şirkətlərinin yaradılması bu sahədəki problemləri həll edə bilər: "Əgər ölkədə yeni dərman şirkətləri yaradılsa, keyfiyyətli dərman istehsal olunsa, bu, əhalinin əczaçılıq məhsulları ilə təminatı baxımından müsbət rol oynayar. O zaman dərmanlar daha ucuz və əlçatan olar. Bu şirkətlər nə qədər çox olsa, daha yaxşı olar, həm də rəqabət yaranar. Dərman sahəsində idxaldan asılılıq yaxşı hal deyil. Çünki əgər idxal prosesi dayansa, əhali üçün çətinlik yarana bilər. Bu mənada yerli istehsala üstünlük vermək lazımdır".

❑ **Nərgiz LİFTİYEVA**
**Foto müəllifindir**

# Sumqayıt örnəyi - şəhər qar sınağından necə üzüağ çıxdı...

## Eyvaz Qocayev: "Şəhər İcra Hakimiyyəti başçısının xüsusi göstərişi və tapşırığı ilə qərargah yaradıldı"

**Hər dəfə Bakıya qar yağanda ciddi problemlər yaranır. Yol, nəqliyyat infrastrukturu, demək olar, iflic vəziyyətə düşür. İki santimetr qar bəs edir ki, paytaxt yolları buz bağlasın. Sonuncu qar isə bir qədər çox yağmışdı. Amma o cür qarlı havada da yollarda müəyyən işlər görmək mümkündür. Son illər xeyli texnika alınıb ki, həmin maşın-mexanizmlərin köməyi ilə problemi aradan qaldırmaq mümkündür.**



Təəssüf ki, hər dəfə olduğu kimi, bu dəfə də eyni mənzərə ilə qarşılaşdıq - yolların buzu, səkilərin qarı müvafiq qurumlar tərəfindən təmizlənmədi. Həmişəki kimi təbiətin yaratdığı problemi elə təbiət özü aradan qaldırdı. Belə ki, yağan qarı Günəş şüaları, havanın artan temperaturu əritdi.

Bu il qar yağanda bir başqa şəhərdə tamam ayrı bir mənzərənin də şahidi olduq. Belə ki, Sumqayıt qarlı günlərdən üzüağ çıxdı. Oxucularımızdan biri Sumqayıtın mərkəzi küçələrindən çəkdiyi fotoları elektron ünvanımıza göndərib. Fotolardan da görünür ki, şəhərin mərkəzi küçələrində təmizlik işlərinə elə qar dayandıqdan sonra başlanılıb. Oxucu qeyd edib ki, yağan güclü qar Bakıdan fərqli olaraq Sumqayıtda nəqliyyatın və piyadaların hərəkətində hər hansı problemlər yaratmayıb. Bunun əsas səbəbi odur ki, qarlı hava şəraitini nəzərə alaraq Sumqayıtın mərkəzi küçəsində xüsusi qərargah yaradılıb. Qarın yollarda yaratdığı problemi nəzərə alaraq duz və qum tədarük edilib.

Musavat.com-un əməkdaşı Sumqayıt Şəhər İcra Hakimiyyəti (ŞİH) ilə əlaqə saxlayıb, görülən işlərlə bağlı bəzi suallar ünvanlayıb. Sumqayıt ŞİH-nin sözçüsü Eyvaz Qocayev bildirib ki, icra başçısı Zakir Fərəcovun göstərişi ilə qarın təmizlənməsi prosesinə ciddi diqqət ayrılıb: "Əvvəla, Sumqayıt şəhərində qışa hazırlıq işləri yalnız qış aylarında deyil, il ərzində aparılır. Sumqayıt şəhərində qarlı-şaxtalı havada yollarda və ya digər ərazilərdə, eləcə də hava şəraiti ilə əlaqədar yarana biləcək problemlərin vaxtında və çevik şəkildə aradan qaldırılması üçün şəhər rəhbərliyi tərəfindən xüsusi qərargah yaradılıb. İcra hakimiyyəti aparatının əməkdaşlarının və aidiyyəti qurumların rəhbərlərinin iştirakı ilə dəfələrlə qışa hazırlıq tədbirləri aparılıb. Öncədən xüsusi texnikalara baxış keçirilib, qışa hazırlıq işləri yüksək səviyyədə görülüb. Qış mövsümündə hərəkəti fasiləsiz və təhlükəsiz təmin etmək məqsədi ilə öncədən qum və duz ehtiyatı da tədarük edildi. Yağıntının başladığı andan etibarən Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanmış tədbirlər planına uyğun olaraq fəaliyyətə başlanılıb. Şaxtalı havada yolların qardan təmizlənərək nəzarətə götürülməsi üçün icra hakimiyyəti və digər qurumların nümayəndələri müxtəlif ərazilərə təhkim olunmuş, iş bölgüsü aparılıb. Şəhər ərazisində avtomobil yollarının, prospekt və küçələrin, məhəllədaxili yolların, qardan təmizlənməsi, hərəkətin fasiləsiz və təhlükəsiz təmin edilməsi məqsədi ilə kifayət qədər işçi qüvvəsi, texnika, nəqliyyat vasitələri qarın təmizlənməsi prosesinə cəlb olunub. Bunun nəticəsində Sumqayıt şəhərində istər avtomobil yollarında, istərsə də piyadaların hərəkətində problem yaranmayıb".



E.Qocayev onu da bildirib ki, qar vaxtında təmizləndiyi üçün nəqliyyatın hərəkətinə heç bir mane yaranmayıb: "Operativ və çevik reaksiya nəticəsində qısa müddət ərzində yollar qardan təmizləndi. Görülmüş işlər nəticəsində sərnişindaşıma ilə məşğul olan avtobusların intervalında gecikmələr müşahidə olunmadı. Şəhər ərazisində kommunal məsələlərlə bağlı yaranan kiçik problemlər də operativ şəkildə aidiyyəti qurumlar tərəfindən aradan qaldırıldı".

❑ **Məğrur SALMANOV**

# Azərbaycanda qanunsuz ovla məşğul olan 16 əcnəbi saxlanılıb

## Nazirlik rəsmisi ov mövsümü üçün tətbiq edilən limiti açıqladı

**Ötən il Azərbaycanda qanunsuz ovla məşğul olan 16 əcnəbi vətəndaş saxlanılıb. Bu barədə Trend-ə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji müxtəlifliyin qorunması və xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişafı departamentinin direktor əvəzi Hikmət Əlizadə bildirib.**



Onun sözlərinə görə, saxlanılanların hər birinə 2 min manat məbləğində cərimə tətbiq edilib: "Bununla yanaşı, həmin şəxslərin ölkədən deportasiya edilməsi üçün Dövlət Miqrasiya Xidmətinə müraciət olunub". H.Əlizadə qeyd edib ki, xarici vətəndaşlarla yanaşı, ölkə vətəndaşları da qanunsuz ovla məşğul olurlar: "Keçirilən reydlər nəticəsində saxlanılan şəxslərin ova gəlməsi sübut olunarsa, onlar 1000 manatdan 2000 manata qədər cərimələnir, əgər həmin şəxs ovla yaxalanıbsa, vurduğu heyvana görə əlavə cərimə ödəyir. 2016-cı ildə ölkədə 213 yerli vətəndaş qanunsuz ov etdiyi üçün saxlanılıb. Onlardan ümumilikdə 193 ov tüfəngi, 632 patron aşkar edilərək götürülüb. Həmin şəxslər ümumilikdə 193 min 317 manat cərimə edilib".

Nazirlik rəsmisi deyib, Azərbaycana xarici ölkələrdən, xüsusən də ərəb ölkələrindən ova gələnlər var: "Həmin şəxslər Azərbaycanda ov sahəsində fəaliyyət göstərən şirkətlərin vasitəsilə gəlir. Bu şəxslərin ov qaydalarına riayət etməsi barədə nazirliyə müraciət edən şirkətlər öhdəlik götürür və onları qaydalarla təlimatlandırır. Ötən il 200 nəfər xarici vətəndaş Azərbaycanda ov etmək üçün icazə alıb".

H.Əlizadə ov mövsümü üçün tətbiq edilən limiti də açıqlayıb: "Ötən il yerli vətəndaşlar üçün quş ovuna 700, dovşan ovuna 580, çöl donuzu ovuna 16, Dağıstan turunun ovuna isə 10 icazə verilib. Ötən il quş, dovşan və digər heyvanların ovlanması üçün xarici vətəndaşlara verilən icazələrin sayı isə 200 olub".

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ ixtilafı - hərblə sülh arasında...

## Rusiya-ABŞ münasibətlərinin qeyri-müəyyənliyi sülh təşəbbüslərinə inamı zəiflədir; Moskva-Tehran-İrəvan "oxu" kimə qarşı yönələcək? **Politoloq:** "Azərbaycan öz gücünü tam nümayiş etdirsə, rayonların geri qaytarılması gerçəkləşəcək"

**İki ay sonra aprel döyüşlərinin ildönümü tamam olacaq. Ötən 10 ay Azərbaycan üçün Dağlıq Qarabağla bağlı bəzi qənaətləri bir az da möhkəmlətmiş oldu. Məsələn, aydın oldu ki, münaqişənin əsas körükləyicisi olan Rusiya özünü nə qədər sülhpərvər göstərsə də, problemin sürətli həllində maraqlı deyil. Və yaxud Kreml sülh danışıqlarında hansısa irəliləyiş əvəzində Azərbaycandan çox böyük, faktiki, reallaşması mümkün olmayan güzəştlər qoparmaq istəyir.**




İkincisi, bəlli oldu ki, Bakı məsələdə dönüşə nail olmaq üçün ilk növbədə işğalçı Ermənistanın əsas dəstəkçiləri (havadarları) ilə dil tapmalıdır, nəinki onun özü ilə. Çünki İrəvanın məsələdə ciddi söz sahibi olmadığı bir daha bəlli oldu. Söhbət, sözsüz ki, öncəliklə Rusiya ilə anlaşmadan gedir.

Üçüncüsü, qənaət hasil oldu ki, Ermənistanı işğal rejiminin davamlı olmayacağına əmin etmək, maksimalist tələblərindən çəkindirməkdən ötrü Azərbaycan ən azından, onu daima təzyiq altında, gərgin saxlamalı, narahat etməli, daima canlı itkiyə məruz qoymalıdır. Bu, həmçinin Sərkisyan rejiminə daxildə etimadın daha da sarsılması üçün gərəkdir.

*****

Yaranmış dalan vəziyyətində Azərbaycan üçün ən əvvəl öz hərbi qüdrətini durmadan artırmaq və daha əlverişli məqamı gözləməkdən savayı yol qalmır. Hərçənd, Moskva mövcud duruma görə məhz münaqişə tərəflərini suçlamaqda davam edir. Guya İrəvan Moskvanın izni olmadan hansısa müstəqil qərar çıxarmaq iqtidarındadır. Bu mənada Kremlin "Azərbaycanla Ermənistan anlaşsın, biz bu anlaşmaya qarant durarıq" tezisi - danışıqları sabotaj edən bir tezisdir və "biz (Rusiya-red.) konfliktin həllində maraqlı deyilik" mənasını verir. Nədən ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun dediyi kimi, Moskva istəsə, qısa zamanda konfliktin həllinə nail olar. Di gəl, Rusiya nəinki təkbaşına hərəkət etmək həvəsində görünmür, eyni zamanda Qarabağ düyününün ABŞ-ın köməyi ilə açılmasının da tərəfdarı kimi görünmür.

"ABŞ və Rusiya arasında heç bir rəsmi əlaqə olmadığından Dağlıq Qarabağ münaqişəsinin mümkün müzakirəsi barədə danışmaq məntiqli deyil". Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ABŞ-ın yeni dövlət katibi Reks Tillersonun mümkün əməkdaşlığı məsələsini şərh edərkən deyib.

"Təhlükəsizlik təhdidlərinin özünü qiymətləndirmək haqqı olan ABŞ-ın mövqeyini şərh etmədən demək istəyirəm ki, münaqişənin özü, əlbəttə ki, ilk növbədə, Ermənistan və Azərbaycanın təhlükəsizlik, sabitlik və gələcək inkişafına birbaşa təhdiddir", - deyə M.Zaxarova bildirib. Onun sözlərinə görə, Moskva və Vaşinqton arasında rəsmi əlaqələrin olmaması fonunda Qarabağ probleminin mümkün müzakirəsini şərh etmək məntiqli deyil. "Gəlin bu əlaqələrin olacağı zamanı gözləyək. Çünki yalnız bundan sonra tərəflər müəyyən məsələləri müzakirə edə bilər", - deyə o əlavə edib.

*****

Göründüyü kimi, rəsmi Kreml indi də ABŞ-ın yeni administrasiyası ilə əlaqələrin hələ qaydaya düşmədiyini bəhanə edib problemin həllini uzatmağa çalışır. Ancaq bu uzatmanın münaqişə zonasında yeni müharibə riskini artıracağını da gərək Moskva unutmasın. Çünki obrazlı desək, dəyənəyin iki ucu var. O da istisna deyil ki, Kremlin Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirləri səviyyəsində üçlü görüşünü təklif eləməsi məhz elə müharibə narahatlığı ilə bağlıdır.

"Rusiya başa düşür ki, Azərbaycan gec-tez İrəvanın hərəkətlərinə adekvat cavab verəcək və bu dəfə cavabımız çox güclü olacaq". Bu sözləri politoloq Fikrət Sadıqov nazirlərin mümkün üçlü görüş ehtimalını şərh edərkən deyib (Axar.az-a). O hesab edir ki, danışıqlar prosesinin bərpası bir çox səbəblərlə bağlıdır.

"Təmas xəttində erməni tərəfindən təxribatlar çoxalır. Rusiya başa düşür ki, Azərbaycan gec-tez İrəvanın hərəkətlərinə adekvat cavab verəcək və bu dəfə cavabımız çox güclü olacaq. Rusiya indi məhz bu reallığı ört-basdır etmək üçün yenidən danışıqlar prosesinə qayıtmağı təklif edir. Diqqət edin, faktiki olaraq danışıqlar ərəfəsində Lavrov Azərbaycan və Ermənistan xaric işlər nazirləri ilə ayrıca danışıqlar aparıb. Çünki Moskva narahatdır. Ona görə ki, Azərbaycan öz gücünü tam nümayiş etdirsə, rayonların geri qaytarılması bir reallığa çevriləcək", - deyə o qeyd edib.

Lakin politoloq qarşıdakı danışıqlar prosesindən o qədər də ümidli deyil: "Deyə bilmərəm ki, hansısa yeni təkliflər irəli sürüləcək. Ancaq yenidən Madrid prinsiplərinə qayıdış ola bilər. Azərbaycan tələbi isə birmənalıdır, bu, mərhələli plandır. İlk növbədə rayonlar boşadılmalıdır ki, proses başlansın. Rusiya və Ermənistan yenə bunu dərk etməzsə, vəziyyət yenidən alovlana, toqquşmalar baş verə bilər. Hazırkı reallıq bundan ibarətdir".

Ekspertə görə, Rusiyanın görüş təklifinin ikinci bir səbəbi Lavrovun Dağlıq Qarabağın Azərbaycanın daxili məsələsi olmaması ilə bağlı bəyanatından qaynaqlanır və Moskva bu məsələyə də aydınlıq gətirməyə çalışacaq.

Politoloq Arzu Nağıyev isə hesab edir ki, SSRİ-nin xələfi kimi bütün problemlərin yaranmasında Rusiyanın necə rolu olubsa, eləcə də həll etməlidir: "Qərbin tələbi məhz bundan ibarətdir. Sərkisyanın son açıqlamasına gəlincə, Ermənistanda bu il seçki ilidir, eyni zamanda Qarabağ klanının gələcəkdə ölkə rəhbərliyində təmsil olunmamaq ehtimalı var. Məhz buna görə də onlar indi "sülhsevər" kimi erməni elektoratına təsir etməyə və separatçılara verdikləri müstəqillik sözünün artıq onların imkanları xaricində olduğunu göstərməyə çalışırlar".

Politoloqun sözlərinə görə, artıq sülh prosesinin işartıları var: "Azərbaycan bu gün azad olunmuş torpaqlara böyük qayıdışa başlayıbsa, bu, o deməkdir ki, proses davam edəcək. Hissə-hissə olsa da, torpaqlarımız geri alınacaq. Görünür, Sərkisyan öz partiyasının daxilində bu məsələni razılaşdırdıqdan sonra güzəştə gedəcəklərinə dair bəyanat verib".

*****

İşğalçı Ermənistan isə bu arada yaranmış fürsətdən istifadə edib özünü daha güvənli hiss etməyin yollarını arayır. Müdafiə naziri Vigen Sərkisyanın 3 günlük İran səfəri ən əvvəl bu kontekstdə qiymətləndirilə bilər. Sərkisyanın İranın müdafiə müəssisələrində olması və tərəflər arasında hərbi-sənaye sahəsi üzrə əməkdaşlığı genişləndirməklə bağlı anlaşma əldə edilməsi xüsusilə diqqət çəkir.

Rusiyalı ekspertlərin də bu səfərlə bağlı maraqlı şərhi var. Məsələn, politoloq Vladimir Yevseyevin iddiasına görə, İranla Ermənistanın hər sahədə əməkdaşlığı "Türkiyə və Azərbaycanı çəkindirmək üçün möhüm əhəmiyyət daşıyır". Bu barədə o, erməni nəşrinə açıqlamasında söyləyib.

"Tehran-İrəvan hərbi əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi İran-Rusiya-Ermənistan oxunun yaranmasına gətirəcək. Hər üç tərəf Cənubi Qafqazda sabit sülhün saxlanması üçün belə bir üçbucağın yaranmasında maraqlıdır" - Yevseyev bildirib.

Onun fikrincə, İran və Ermənistan müdafiə nazirlərinin görüşü zamanı Azərbaycanın İsrail istehsallı pilotsuz uçan aparatlarına qarşı mübarizə məsələsi də müzakirə olunub. "İndi bir çox sayda faktor var ki, İsrail pilotsuz aparatları məhv etməyi çətinləşdirir. Ancaq bu sahədə ortaq əməkdaşlığın müsbət nəticələr verməsi mümkündür. Burada həlledici rolu Rusiyanın radio-elektron sistemi oynaya bilər. İsrail pilotsuz aparatları ilə mübarizə İran-Ermənistan-Rusiya üçbucağı çərçivəsində əməkdaşlığın sferalarından biri olmalıdır" - politoloq hesab edir.

*****

Əlbəttə ki, Azərbaycan da sakit durmayıb və Dağlıq Qarabağ məsələsi ətrafında bu və digər xoşagəlməz gəlişmələri, hansısa geosiyasi "üçbucağın" yaranma mümkünlüyünü diqqətlə izləyir. İşğalçı tərəfin bu kimi planlarını Azərbaycanın öz strateji müttəfiqləri və strateji tərəfdaşları ilə birgə uğurla neytrallaşdıracağına isə kimsənin şübhəsi olmasın.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**Dünyada İŞİD təhlükəsi davam etdikcə, bu terror təşkilatı da gündəmdə qalmaqda davam edir. Bütün ölkələrin qorxulu röyasına çevrilən qruplaşmanın yarandığı və mövcudluğu barədə ən müxtəlif mövqelər var.**

# Səddam Hüseyn və Qəzzafi öldürülməsəydi... İŞİD olmazdı?

## Qabil Hüseynli: "Qəzzafi Səddamın tayı deyildi, çünki..."





Əksəriyyət Amerikanın Yaxın Şərqdə son 15 ildə apardığı əməliyyatlara görə İŞİD-ın yarandığını düşünür və dünyanın terror təhlükəsi altında qalmasında rəsmi Vaşinqtonu günahkar görür. Bir çoxları isə hesab edir ki, İraqda Səddam Hüseyn, Liviyada Müəmmər Qəzzafinin devrilməsi və Yaxın Şərqdə təhlükəsizliyin pozulması sonucda İŞİD-ın yaranmasına gətirib. Artıq belə fikirlər nəinki dünya dövlətləri, eyni zamanda, ABŞ, Böyük Britaniya, Almaniya və digər Avropa ölkələrinin yüksək rütbəli dövlət məmurları tərəfindən də səslənir. Hətta xatırlatmaq kifayət edər ki, ABŞ-ın yeni prezidenti Donald Tramp da seçki öncəsi təbliğat kampaniyası zamanı S.Hüseyn və M.Qəzzafinin öldürülməsindən təəssüfləndiyini və terror təhlükəsinin bundan sonra artdığını bildirmişdi.

Trampın fikirləri belə idi: "Əgər İraq və Liviyada dövlət çevrilişləri olmasaydı, Yaxın Şərqdə hazırda tam dəyişik bir mənzərəni müşahidə etmiş olardıq. Səddam Hüseyn və Müəmmər Qəzzafini öldürmək Qərb üçün yanlış addım oldu. İraqa baxın! Əvvəl orada terrorçular olmazdı. Hüseyn onları dərhal məhv edərdi. Amma hazırda İraq terrorçular üçün Harvard görünüşü alıb. Mən demirəm ki, Hüseyn yaxşı adam idi. Doğrudur, o, pis idi, amma ölümündən sonra vəziyyət daha da pisləşdi. Liviyaya gəlincə, bu dəqiqə heç kim başa düşmür ki, orada nə baş verir".

İraq müharibəsinin əsas təşəbbüskarlarından biri olan Böyük Britaniyanın keçmiş baş naziri Toni Bler də İraq savaşına görə təəssüfləndiyini və məhz bu savaşın İŞİD-i əmələ gətirən əsas səbəb olduğunu bildirmişdi. Əslinə qalsa, S.Hüseyn də edam olunarkən bənzər fikirlər səsləndirmişdi. O demişdi: "Məni öldürməklə İraqa nəzarət edəcəyinizi düşünürsünüz, amma yanılırsınız. Yaxın Şərqdə hər şey yeni başlayır".

Politoloq Qabil Hüseynli isə hesab edir ki, Səddam Hüseyn və Qəzzafini ayrı-ayrılıqda dəyərləndirmək lazımdır: "Səddam haqqında fikirlərim Qəzzafi haqqında fikirlərimdən tam fərqlidir. Hesab edirəm ki, Səddam o dövrdə diktator, avtoritar başçı kimi Yaxın Şərqi silkələyirdi. Amerikanın da maraqlarına zidd siyasət yürüdürdü. Səddamın dövründə İranla 8 illik müharibə aparıldı. Bu, həmin dövr idi ki, İranda ruhanilər yenicə hakimiyyətə gəlmişdilər. Bu müharibə Yaxın Şərqi kifayət qədər silkələdi. Müsəlman dünyası da tamamilə qarışdı. Bunun ardınca o, Küveyti işğal etdi və iddia etdi ki, bu ərazi vaxtı ilə İraqın bir hissəsi olub. Amerikanı Küveytlə yaxın əməkdaşlıq telləri bağlayırdı. Həmçinin Küveyti Səudiyyə Ərəbistanı müdafiə edirdi. Bir sözlə, ərəb ölkələri, ABŞ Səddam Hüseynin cızığından çıxdığını aydın görürdülər. İş o yerə çatmışdı ki, Səddam Hüseyn Bağdadın mərkəzindəki "Hilton" otelinin qarşısında ata Buşun yerə döşənmiş böyük bir şəklini çəkdirmiş və otelə gələn hər bir şəxs onun şəklini tapdalayaraq, otelə girirdi. O, hər siyasətində ABŞ-la münasibətləri kəskinləşdirən addımlar atırdı. Bunun nəticəsində Amerika Küveytə hücum etdi, oranı azad etdilər və hətta Bağdadın mərkəzinə qədər gəlib çatdılar. O zaman Səddamı devrilməkdən və edam olunmaqdan Səudiyyə kralı qurtardı. O, ABŞ-dan xahiş etdi ki, hücumu dayandırsın və Səddamın hakimiyyətdə qalmasına imkan versin. O da həmin arqumentləri gətirdi ki, başqa cür olsa, vəziyyət gərgin olacaq. Bir sözlə, vəziyyətdən çıxmaq mümkün oldu. Amma Səddam Hüseyn heç cürə öz ənənələrindən kənara çıxmadı və Amerikanı təhdid etməkdə davam etdi. Onun ardınca kürdlərə qarşı böyük qətliam həyata keçirdi, hətta bu zaman kimyəvi silah da tətbiq etdi. Səddam elədikləri hərəkətləri ilə həmin dövrü düşünəndə o, qəddar, qaniçən diktator kimi xatırlanır. O zaman onun devrilməsini dünyada hamı istəyirdi. İndi ABŞ-da elə şəxslər var ki, Küveyti azad etdikdən sonra Səddamı devirməməyə görə ata Buşu bu dəqiqə də qınayırlar. Tramp kimi siyasəti dərindən başa düşməyən birisi bu məsələni ayırd edə bilməz.

Qəzzafiyə qarşı edilənlərə isə, heç cür haqq qazandırmıram. Çünki o, Səddamın tayı deyildi. Qəzzafi öz ölkəsində xarakterli bir cəmiyyət yaratmışdı. Bu cəmiyyət də əhalinin normal yaşaması üçün təminat verirdi. Bu başqa məsələdir ki, Yaxın Şərqdə vəziyyətin gərginləşməsində kim daha böyük rol oynadı. Zənnimcə, İŞİD-ın yaranmasında və vəziyyətin gərginləşməsində İraqdakı 250 minlik amerikan qoşununun oradan çıxarılmasının rolu oldu. Burada da Barak Obama günahkardır. O, hakimiyyətə gələn kimi ordunun çıxarılmasına başladı və beləliklə, bu ölkədə çox böyük sabitsizliyin əsasını qoydu. Liviya isə təkcə Amerikanın günahı deyil, burada NATO ordusu da var. Düşünürəm ki, o dövrü dərindən analiz edib, qiymət vermək lazımdır. Əməliyyatlarda iştirak edən ölkələr daxilində rəsmilər səviyyəsində üzr istəmələr, təəssüflənmələr var. Burada onların bir-birilərinə qarşı qısqanclıqları, siyasilərin istifadə halları var. Bu iddiaların irəli sürülməsinin hamısı subyektiv xarakter daşıyır".

Politoloq S.Hüseynin dediyi son sözlərə də toxundu: "Zənn etmirəm ki, o hadisələri bu cür proqnozlaşdırırdı. Sadəcə, özünü qəhrəmanlar kimi aparıb, gələcəyi görmüş bir siyasi xadim kimi tarixə həkk etmək istəmişdi. İŞİD-ın əsasını Səddam Hüseynin qüvvələri təşkil edirdi. Bu doğrudur, amma Barak Obamanın terror təşkilatının yaranmasında rolu çox böyükdür. Söylənilən fikirlərin əksəriyyəti pafosdan o tərəfə keçmir".

❑ Cavanşir ABBASLI

# Tramp Rusiyanın ümidini doğrultdu... demək olarmı?

## Ekspert: "ABŞ-ın yeni prezidenti bir çox ənənələrin üstündən xətt çəkir, bütün ehkamları dağıdaraq, vədlərini yerinə yetirir...."

**Donald Tramp ABŞ prezidenti seçildikdən sonra seçkiqabağı verdiyi vədlərə əməl etməyə çalışır. Artıq o, bu xüsusda sensasiya yaradan bəzi qərarlara imza atıb. Belə ki, onun müsəlmanlara qarşı ayrı-seçkiliklə bağlı fərman imzalaması, Meksika ilə sərhədə divar hörmək barədə göstəriş verməsi Avropa ictimaiyyətini də narahat edir.**



Təsadüfi deyil ki, Fransa prezidenti Fransua Olland Avropa ölkələrini ABŞ prezidenti Donald Trampa qarşı birləşməyə çağırıb. Olland bu birliyin olduqca vacib olduğunu diqqətə çatdırıb.

Bəs, hesab eləmək olar ki, bütün bu addımları ilə Tramp Rusiyanın ümidlərini doğrultdur? Politoloq Elxan Şahinoğluna görə, Amerikanın yaxın siyasi tarixində belə bir hal olmayıb ki, hər hansı prezident andiçmə mərasimindən keçən iki həftə ərzində belə bir təlatüm yaratsın: "Bu, həm ölkə içində, həm də ölkə xaricində belədir. Hətta andiçmə mərasimi də küçə yürüşləri, etirazlarla yadda qaldı. İndi də verdiyi vədlərin hamısını yerinə yetirməyə başlayır. Halbuki, əvvəlcə düşünülürdü ki, o, verdiyi vədlərin hamısını yerinə yetirə bilməz. Çünki bu vədlər Amerikaya problemlər yaradar. Ancaq görürük ki, bütün ehkamları dağıdaraq, vədlərini yerinə yetirir. Nəzərə almaq lazımdır ki, bu adam siyasətçi yox, biznesmendir. Biznesdə isə belədir ki, imzaladığın sənədi gərək yerinə yetirəsən. Meksika ilə sərhədə divar hörmək məsələsini ortaya atması, bu dövlətlə münasibətləri gərginləşdirib. İndi də deyir ki, həmin divarı elə Meksikanın özü tikəcək. Meksika prezidenti isə cavab verir ki, buna pul ayırmayacağıq. Ola bilər ki, Tramp Amerikada çalışan meksikalılardan artıq vergi tutub, o divarı tiksin. Yaxud da başqa bir məsələ Kanada ilə bağlıdır. Kanada ABŞ-a dost, tərəfdaş, qonşu dövlətdir. Tramp müsəlman ölkələrindən vətəndaşları ölkəyə buraxmadığı halda, Kanada baş naziri bildirdi ki, biz onları qəbul etməyə hazırıq. Bu da faktiki olaraq qonşusu Amerikaya bir mesaj idi. Üstəlik də indi Rusiya ilə münasibətlərində də dəyişiklik var. Rusiyada buna çox böyük önəm verirlər. Rusiya mediasında əvvəllər Barak Obamanı sərt tənqid edirdilərsə, Trampla bağlı bu, müşahidə olunmur. Görünür Kremldən sifariş var ki, gözləmə mövqeyində olmalıyıq".

Ekspert bildirib ki, Rusiyanın Trampla bağlı iki gözləntisi var: "Birincisi ümid odur ki, Suriyada terrorçulara qarşı Rusiya ilə birgə mübarizə aparacaq. Hansı ki, bunun da artıq əlamətləri var. Görünür gələcəkdə Rakkaya hücumla bağlı Rusiya və Türkiyə ilə əməkdaşlıq mümkündür. Rusiyanın ikinci gözləntisi isə Ukrayna ilə bağlıdır. Aydındır ki, nə ABŞ, nə Avropa İttifaqı dövlətləri, nə də elə Rusiyanın yaxın müttəfiqləri olan Qazaxıstan, Belarus Krımı Rusiya ərazisi kimi tanımayacaq. Rusiya da heç bunu gözləmir. Ancaq Rusiyanın Trampla bağlı ümidi odur ki, Donbasla bağlı Ukrayna mövzusu onun üçün arxa plana keçsin. Tramp elə seçkiqabağı çıxışlarında da Ukrayna mövzusundan çox da danışmırdı. Doğrudur, fevralın 4-də Ukrayna prezidenti ilə danışıb. Ancaq elə də ciddi əlaqələr yoxdur. Düşünmürəm ki, Tramp Obama dövründə olduğu kimi Ukraynaya dəstək versin. Rusiyada bu məsələdə ümidlidir".

Politoloq Trampın Avropa ilə münasibətlərinə də toxundu: "Amerikada, dünyada baş verən proseslərə iki baxış mövcuddur. Hələ ötən əsrin əvvəllərində bir qrup Avropanın öz problemləri ilə məşğul idi. Deyirdilər ki, Avropada, Asiyada baş verənlərin bizə aidiyyəti yoxdur. İkinci qrup siyasətçilər isə bildirirdilər ki, bu məsələlərdə fəal rol oynamalıyıq. Birinci Dünya müharibəsində Amerika əvvəl iştirak etsə də, sonra yenidən öz "qınına çəkildi" və Avropanın işinə qarışmadı. İkinci Dünya müharibəsi başlayanda da Amerika Avropanın işinə qarışmaq istəmirdilər. Bu müharibədən sonra isə neçə illik siyasət dünyada hegemon olmaq üzərində qurulmuşdu. Ancaq indi görürük ki, Tramp, bu ənənənin də üstündən sanki xətt çəkməyə çalışır. Avropanın iki ən önəmli strukturu var: Avropa İttifaqı və NATO. İkisi ilə də bağlı Trampın çox tənqidi fikirləri var. Avropa İttifaqı ilə bağlı söyləyir ki, Britaniya düz addım atıb, bu ittifaqı tərk etdi. Yeni sözündən belə çıxır ki, Avropa İttifaqı dağılmalıdır. NATO ilə bağlı isə bildirir ki, bəsdir, biz onları maliyyələşdirik. NATO üzvləri də öz təhlükəsizliklərinə görə Amerikaya və NATO-nun saxlanmasına pul ödəsin. İndiyə qədər Avropanın təhlükəsizliklə bağlı yeganə ümidi Amerikaya idi. İndi Tramp bu məsələyə də biznesmen kimi yanaşaraq deyir ki, razıyam, ancaq pul ödəyin. Ona görə də Avropada çaxnaşma var. Bu isə o demək deyil ki, Amerika dünyadakı proseslərdən çəkiləcək. Çünki ən azından beynəlxalq terrorizmə qarşı mübarizə aparacağını deyir və bunun üçün də Suriyada, Yəməndə, İraqda aktiv olmalıdır. Lakin bununla bərabər özünə yenə də problem yaradır. Yeddi müsəlman ölkədən vətəndaşları Amerikaya buraxmamaq, Avropa İttifaqında, müsəlman ölkələrində tənqidlə qarşılanır. Hətta onun bu cür qətnaməni Rusiya üçün də diskomfort yaradır. Çünki İranla Amerikanın münasibətləri gərginləşsə, Rusiyanın Amerika ilə təktərəfli dostlaşması xarici siyasətdə problemlər yarada bilər".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017

# Qarlı Praqada gəzən azərbaycanlı - reportaj

## Əməkdaşımız Azərbaycan Cümhuriyyəti ilə həmyaşıd olan Avropa dövlətinin paytaxtından yazır...

**Adətən getdiyimiz xarici şəhərlərdən təəssüratlar yazırıq. Bəli, artıq bu o qədər də dəb deyil. Çünki internet sayəsində hansısa şəhərə getmədən ora haqqında məlumat əldə etmək olur. Amma həmin küçələrə ayaq basmaq ayrı bir hissdir.**

Bu yaxınlarda bir həftəlik işlə bağlı Çexiyanın paytaxtı Praqaya yola düşdüm. Bu şəhər haqqında çox eşitmişdim. O səbəbdən Praqanı görmək çox xoş oldu. İlk olaraq Çexiya haqqında qısa məlumat verim. Ölkə müstəqilliyini bizimlə eyni vaxtda, yəni 1918-ci ildə əldə edib. II Dünya Müharibəsindən sonra sovetlərin cənginə keçib və "kommunist bloku" dövlətinə çevrilib.

1968-ci ildə ölkədə "Praqa baharı" hərəkatı baş verib. Ancaq Varşava Müqaviləsi ölkələrinin buraya qoşun yeritməsi onların "insan üzlü sosializm" yaratmaq arzusunu əngəlləyib. Hərəkat zor hesabına yatırılıb. 1989-cu ilin "məxməri inqilab"ından sonra ölkə SSRİ-nin Avropa əlavəsi olmaqdan qurtulub və dinc yolla iki dövlətə: Çexiya və Slovakiyaya bölünüb.

Çexiya NATO-nun və Avropa Birliyinin üzvüdür. Şengen zonasına daxildir. Amma ölkədə avroya tam keçid reallaşmayıb. Alış-veriş, hələ də, çex pulu olan kronla aparılır. Lakin alış-veriş məkanlarında qiymətlər həm də avro ilə göstərilir.

**Xoşbəxt görünməyən çexlər...**

Müşahidələrim zamanı da gördük ki, insanların üzündə sevinc hissi yoxdur. Adam özünü Bakıda hiss edir. Bəlkə də havanın soyuqluğu insanları da soyuq edir, bilmirəm. Amma bu xalqın ciddi şəkildə gülüşə ehtiyacı var. Hətta narkotik belə onları güldürmür.

Məsələ ondadır ki, burada narkotik maddədən istifadə etmək qanunsuz sayılmır. Tinlərdə, barlarda rahat şəkildə narkotik vasitə sayılan otlardan satılır. Amma bir şərtlə, bunu digər insanların gözü önündə açıq-aşkar etmək olmaz. Burada da mədəniyyət gözlənilir. Küçədə isə sizə polis yaxınlaşıb, cərimə yaza, hətta həbs edə bilər. Və ya sizə xəbərdarlıq edib, buraxa bilər. Bu, polisin səlahiyyətindədir.

**Kondisionersiz evlər**

Praqada binalar əsasən 5 mərtəbədən ibarətdir. Bundan artıq bina ucaltmaq qadağan edilib. Bakıda gördüyünüz yaşıllıqlar üzərində tikilmiş çoxmərtəbəli binaları burada görmək qeyri-mümkündür. Qadağalardan biri kondisionerlə bağlıdır. Belə ki, şəhər UNESCO tərəfindən qorunduğu üçün xüsusi qaydalar var. Onlardan biri də binalara kondisionerlərin quraşdırılmasının qadağan edilməsidir. Tarixi əhəmiyyət daşıyan binalara ziyan vurulmasın deyə, bu qaydaya hər kəs riayət edir. Yay aylarında Praqa sərin olduğu üçün buna çox da ehtiyac qalmır.

**Yeraltında tikilən binalar**

Deyildiyi kimi, Praqada çoxmərtəbəli binaların tikilməsi müşkül məsələdir. Hətta ticarət mərkəzləri bu qadağaya görə, bir neçə mərtəbəni yerin altında tikib. Şəhərin ən böyük AVM-si sayılan "Paladium"da mərtəbələrin ikisi yerin altındadır. AVM-lərdə olan qiymətlərə baxanda hiss edilir ki, burada insanlar heç də az qazanmırlar. Çünki mağazaların 90 faizi brand mal satır. Qiymətlər də buna görə təyin edilib.





**Göstərişi sevməyən Praqa**

Yol kənarında, küçələrdə dövlət tərəfindən nəyisə ört-basdır etmək üçün hasarlanma yoxdur. Piyada yollarını avtomobil yolundan ayıran dəmir bordyurlar belə sadədir. Heç kim onları minlərlə dollar pul "xərcləyib" İtaliyadan gətirdiyi bəzəkli dəmirlərlə əvəz etmir. Buna ehtiyac yoxdur. Bu durum dayanacaqlarda da keçərlidir. Hamısı sadə şəkildədir və ən əsası burada sürücü qovğası yaşanmır.

**Nəqliyyat...**

Praqa küçələri tramvayla doludur. Köhnə vaqonlardan tutmuş, yenilərə kimi hamısı öz işini davam etdirir. Çexiyanın öz istehsalı olan "Şkoda" vaqonlarını hər dəqiqə görmək mümkündür. Burada metrolar da sadədir. Dayanacaqlarda oturacaqların olmaması bəlkə də metronun yeganə mənfi cəhətidir. Vaqonlarda daimi boş yer var. İctimai nəqliyyatın hamısı üçün keçərli olan vahid bilet satılır. Biletlərin dəyəri vaxta görədir. 30 dəqiqəlik, 90 dəqiqəlik və 3 günlük biletlər var. Turistlər əsasən 24 krona (2 manat) yarım saatlıq bilet alırlar. Çex vətəndaşları və ya uzunmüddətli burada yaşayanlar isə illik ödəniş edirlər. Biletdə göstərilən zaman çərçivəsində bütün növ ictimai nəqliyyatdan istifadə etmək olar. Nəqliyyata hər dəfə minəndə sizin biletinizi yoxlayan olmayacaq, hətta metro keçidində də bizdə olduğu kimi xüsusi qurğular yoxdur. İnsanlar vicdanının öhdəsinə buraxılıb. Hətta biletsiz belə minmək olur, amma işdir, müfəttişlər səni tutsa, 40 avro cərimə ödəməyə hazır olmalısan.

**İnsanları...**

Praqanın milyon yarım dəimi sakini var. Amma şəhər elə planlaşdırılıb ki, heç bir sıxlıq müşahidə edilmir. Burada ən xırda detallar belə diqqətə alınıb. Məsələn, piyada keçidlərində olan işıqforlarda səsli bildiriş var. Bu səsli bildiriş gözdən əlil olan insanlar üçün nəzərdə tutulub. Çexlərin xüsusi it saxlama mədəniyyətləri var. Demək olar ki, hər kəs evdə it saxlayır.

Soyuq iqlimə alışması üçün uşaqlar körpə yaşlarında tez-tez soyuq havada gəzdirilir.

**Hər 5 nəfərdən ikisi vyetnamlıdır**

Praqada maraqlı bir durum var. Şəhərin bütün mini marketlərini vyetnamlılar idarə edirlər. Küçəyə çıxıb, 1-2 saat gəzin. Görəcəksiniz ki, qarşınıza çıxan hər 5 nəfərdən 2-si vyetnamlıdır, biri turist, digər 2 nəfər isə çexdir. Çexlər fərqli millətdən olanları özlərinə çox da yaxın buraxmırlar. Onlarla münasibət qurmaq çətindir.

**Marketlərdə xüsusi qayda...**

Bakıda alışdığımız bir şey var: marketdə 3 ədəd nəsə alırsan, hər birini ayrı selafana qoyursan ki, zibil üçün istifadə edəsən. Və ya supermarketə girib, yekə araba ailə alış-veriş edib, sonda da onu bir yerdə atıb, gedirsən evə. Burada bütün bunlar nəzərə alınıb. Məsələn, marketdə nə qədər alış-veriş etsən də, selofan paketləri pulsuz ala bilməzsən. Hər birinə 2 kron (təqribən 20 qəpik) verməlisən. Bunun səbəbi ekologiyanın qorunmasıdır. Pul verib alınan selofanı insanlar küçəyə atmazlar. Həmçinin gərəkdiyi qədər selofan tükədərlər. Supermarketlərdə isə arabadan istifadə etmək üçün 5-15 kron arasında ödəniş etməlisən. Arabanı sonda gətirib yerinə qoysan, ödədiyin pulu geri alırsan. Bu da insanları daha mədəni olmağa alışdırmaq üçündür.

**Siqaretin satılmaması üçün hər şey edirlər**

Çexiyada satılan siqaretlərin üzərində müxtəlif fotolar var. Çürümüş ciyər, vərəm olmuş insan, siqaretə görə dünyaya əngəlli gəlmiş körpə, çürümüş dişlər və s. Bu fotolarla insanlarda siqaretə qarşı nifrət yaratmağa çalışırlar. Çexiyada ən ucuz siqaretin qiyməti 3 dollardır.

***

Çex dili rus dilinə bir qədər bənzəsə də, bütün qohum dillərdə olan gülməli ayrıcalıqlar burda da var. Məsələn, küçələrdə bəzən tikinti yerlərinə, elektrik qutularına "Pozor!" sözü yazılmış plakatlar görəcəksiniz. Bu, rus dilində olan "ayıb" anlamına gəlmir. Heç kim həmin yerdə ayıb iş görməyib. "Pozor" çex dilində "diqqət" deməkdir. Çexlər stüardessaya - letuçka, ətirə "vonyuçka", "yaxşı"ya "ujasna", "kişi"yə isə "muzi" deyirlər.



**Rus dilinə nifrət...**

Çexlər öz tarixlərini unutmurlar. Bu səbəbdən istənilən yaşda olan çexə rus dilində müraciət edəndə həmin adam hirslənir. Sənə qarşı içində mənfi fikir formalaşdırır. Rus dilində bilsə belə ya çex, ya da ingilis dilində cavab verir.

**Pulları ərəblər dəyişir**

Praqada yaşayanlar bunu yaxşı bilirlər. Əgər pullarını dəyişmək istəyirlərsə, ərəblərin işlətdiyi valyuta dəyişmə məntəqələrinə gedirlər. Çünki digər yerlərdə əlavə faiz tutulur.

**Dilənçilər...**

Hər yerdə olduğu kimi, burada da dilənçilər var. Amma onların sayı azlıq təşkil edir. Bakıda hər addımda "Qaqa, Sumqayıta gedirəm, 20 qəpiyin olmaz?" tipli suallara burda rast gəlməzsən.

***

Əslində burada qar elə Bakıdakı qədər yağır. Amma küçələrdə hava şəraitinə görə heç bir problem olmur. Çünki qar yağmağa başlayan kimi qar təmizləyən maşınlar küçələrdə fəaliyyətə başlayır.

**Polislər**

Praqa polisinin xüsusi geyimi var. Hamısı da idmançı görkəmdə, əlləri silahlı... Nə qarınları qabağa gedir, nə də sayları çoxdur. Praqada polis görmək çətindir. Yolla gedərkən bir qrup fərqli inanca malik olan insanların ayin rəqsinin şahidi olduq. Rəqslərini edib, dağılışdılar. Heç kim də onlara bir söz demədi.

**Çex pivəsi**

Çex pivəsi dünyaca məşhurdur. Buraya gələn turistlər ilk olaraq pivə içmək üçün restoran və barlara axışırlar. Qiymətin də ucuz olması, bu istəyi daha da artırır. Praqada pivə sudan ucuzdur. Restoranlarda isə xidmət səviyyəsi elə də yüksək deyil.

**Praqada Bakını yada salmaq**

Praqada bütün şəhərin küçələri ağ-qara rəngli eyni daşla örtülüb. Heç kim o daşların üzərinə asfalt çəkə bilməz. Sadəcə əsas avtomobil yollarında asfalt var. Mağazalar, marketlər, restoranlar piyada yolunu 10 sm belə olsa qapada bilməz. Əsas qayda var: heç nə şəhərin gözəlliyini pozmalı deyil. Heç kim ağac kəsib, yerində özünə villa ucalda bilməz...

❑ **Məhəmməd TÜRKMƏN**
❑ **Çexiya, Praqa**
❑ **Fotolar müəllifindir**

# Cərrahlar üçün yaş senzi olmalıdırmı - iki baxış

## Bir qisim hesab edir ki, yaş artdıqca təcrübə də artır, digər qisim isə yaşlı cərrahların əməliyyata girməsini riskli hesab edirlər..."

**Dünyanın ən yaşlı cərrahı 89 yaşlı Alla Levuşinka hesab edilir. O, hazırda Rusiyanın Ryazan şəhərində dövlət xəstəxanasında çalışır. Mətbuata açıqlamasında cərrah bildirib ki, indiyə qədər 10 mindən çox əməliyyatda iştirak edib. Hazırda da işinə davam etdiyini söyləyib.**



Müxtəlif peşə sahibləri üçün yaş senzi tətbiq olunur. Azərbaycan qanunvericiliyinə görə, dövlət büdcəsindən maliyyələşən idarələrdə çalışan şəxslər üçün yaş senzi 65 yaş həddində müəyyənləşdirilib. 65 yaşına çatmış dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq icra hakimiyyəti orqanının rəhbəri tərəfindən hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər. Bu müddətin 5 ildən çox uzadılmasına yol verilmir. Bəs cərrahlar üçün necə, yaş senzi varmı, olmaldırmı?

Dünyada hətta 90 yaşlı cərrahların da əməliyyata girmələri ilə bağlı məlumatlar var. Lakin bildirilir ki, onlar əməliyyat prosesində iştirak etmirlər. Gənc həkimlərə öz bilik və təcrübələrindən çıxış edərək, əməliyyat prosesində yol göstərirlər. Bu onunla əsaslandırılır ki, yaşlı cərrahların əlləri titrəməyə başlayır. Bu isə olduqca riskli haldır.

Lakin bəzi həkimlər hesab edirlər ki, 35 yaşındakı cərrah, 70 yaşında olandan daha risklidir. Çünki onun təcrübəsi yoxdur. Bu barədə Türkiyə mətbuatına açıqlama verən türkiyəli cərrah, professor Mete Düren bildirib ki, tibdə, xüsusilə cərrahi sahələrdə bioloji və fizioloji yaş bir-birindən ayırd edilməlidir: "Özümdən nümunə verəcək olsam deyə bilərəm ki, etdiyim minlərlə əməliyyatdan sonra az qala hər cür detalı mənimsədiyimi düşündüyüm halda, 80 yaşındakı atamın etdiyi bir əməliyyatda gördüyüm kiçik bir nüans mənə nəyisə öyrədir. Yəni onun etdiyi bir əməliyyatdan, onun texnikasından, mənim hələ öyrənəcəyim şeylər var".

İstanbul Elm Universitetinin professoru, cərrah Yaman Tokat isə Türkiyə mətbuatına bildirib ki, yaş təcrübə qazandırar: "Təbii ki, yaş əhəmiyyətlidir. Əvvəllər 10 saat əməliyyat edirdik, indi dayanma gücümüz 5 saata düşüb, on il sonra 3 saata düşəcək. Təbiət insanı yaşlandırır, bəzi şeyləri bədənindən aparır. İnsan da öz halını bilərək, ona uyğun şəkildə bu riskləri alıb, əməliyyat etməlidir. Çox riskli əməliyyatlara girməmək lazımdır. Lakin yaşlılar, digər yoldaşlarla ortaq şəkildə əməliyyata girə bilərlər. Yaş dediyiniz şey xronoloji bir şeydir. Bəzi 70 yaşlıların orqanizmi 50 yaşlılar kimi, bəzi 50 yaşlılarınkı isə 70 yaşındakı biri kimi çalışa bilər. Özünə yaxşı baxıbsa, idmanını edibsə, onu digər həmyaşıdlarından ayırmaq lazımdır. Əgər yaşlı vaxtlarında da əməliyyatlara girmək istəyirlərsə, o zaman həkimlər özlərinə eyni ilə idmançılar kimi yaxşı baxmalıdırlar. Uzun müddət bu işdə olmaq istəyiriksə bədənimizə, ictimai həyatımıza bir sözlə hər halımıza diqqət etməliyik."

Professor Adil Qeybulla mövzu ilə bağlı "Kaspi" qəzetinə bildirib ki, səhiyyədə yaş senzi əslində var. Səhiyyə Nazirliyinin təlimatı ilə 65 yaşdan yuxarı şəxsin əmək qabiliyyətli olması məsələsini yerli xəstəxananın rəhbərliyi həll edir: "Amma burada başqa bir məqam da var. İnsan var ki, 60-65-dən sonra əmək qabiliyyətini xeyli itirir. Amma eləsi də var ki, 70 yaşında ağlı, əmək qabiliyyəti yerində olur. Buna fərdi yanaşılmalıdır. Kimsə Akademiyanın üzvüdür, professordur, klinikanın rəhbəridir. Belə adamların məsləhətlərinə, araşdırmalarına ehtiyac var. Onların erkən yaşdan təqaüdə çıxarılması ümumi işin ziyanınadır. Amma praktik həkimlərin yaş senzi 65 qoyulub. Bu nisbidir və sonrakı durum xəstəxana rəhbərliyi tərəfindən dəyərləndirilir. Buna uyğun olaraq da ya təqaüdə göndərilir, ya da vəziyyətə görə əmək fəaliyyəti ilbəil təmin edilir. 5 il maksimumdur. Amma ümumilikdə hər il müqavilə bağlanmaqla həkim işləyə bilər".

A.Qeybulla deyib ki, yaşlandıqca insanın reaksiyalarında, diqqətində xeyli zəifləmə olur: "Amma buna baxmayaraq, baş verən neqativ hadisələrdə həkimin səhvi olub-olmadığını yoxlamaq lazımdır. Çünki həkim yaşlı olsa belə, heç onun günahı olmaya, xəstəliyin ağırlaşmasından xəstə dünyasını dəyişə bilər. Yəni görülən bütün tədbirlər effektsiz olduğu halda, xəstəni xilas etmək olmaz. Bu məsələlər araşdırmalıdır".

❑ **Əli Rais**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Əməkdar artist: "Xəyanət etsə, ərimi də, özümü də öldürərəm"

**Əməkdar artist Naibə Allahverdiyeva şəxsi həyatından danışıb. Axşam.az-ın məlumatına görə, aktrisa "Lider maqazin"ə açıqlamasında həyat yoldaşı ilə tanış olmasından bəhs edib:**

"O insan həyatıma gələndən sonra günlərim mənalaşıb. Heç bir qadın və kişi tək qala bilməz. Pis iş görməmişəm ki, ailə həyatı qurmuşam. Bir dəfə xınayaxdı mərasiminə getmişdim, bu da orada çalışırdı. Qonaqlara yemək gətirirdilər. Heç mənə baxmırdı, bu da diqqətimi çəkdi. Nömrəmi istədi ki, xınayaxdımız olanda sizi çağıracam. Bir müddət sonra özüm ona zəng vurdum ki, xınayaxdınız yoxdur? Dedi, olanda mütləq sizi çağıracam. Sonra soruşdum ki, niyə evlənmirsiniz? Qayıtdı ki, kimdir mənə gələn. Cavab verdim ki, mən. Evlilik təklifini mənə yolda etdi. Dedi ki, istəyirəm həyat yoldaşım olasan, səni çox sevirəm. Əgər həyat yoldaşım gedib başqa qadınla görüşəcəksə, mənə lazım deyil. Xəyanət etsə, onu da öldürərəm, özümü də".



## Bakıda sürücü yolu təmizləyən qadını öldürüb qaçdı

**Paytaxtda ağır yol qəzası baş verib. Lent.az xəbər verir ki, Heydər Əliyev prospektinin Sabunçudan keçən hissəsində yolun kənarındakı qar qalıqlarını təmizləyən qadını avtomobil vurub. Naməlum sürücünün idarə etdiyi nəqliyyat vasitəsi 40-45 yaşlı qadını vuraraq 10-15 metr kənara atıb. O, aldığı xəsarətlərdən hadisə yerindəcə keçinib.**

Qəzanı törədən sürücü avtomobili ilə birgə qaçıb. Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 26 (6640) 6 fevral 2017

**Türkiyə mətbuatı 5 fevral tarixində İngilis mətbuatına istinadən maraqlı xəbər paylaşıb. Xəbərə görə, ABŞ-ın Kaliforniya ştatında yerləşən və dünyadakı texnologiya istehsalının mərkəzi qəbul edilən Silikon Vadisindəki milyonerlərin böyük bir qismi dünyada yaşana biləcək böyük bir fəlakətə qarşı hazırlıqlara girişiblər.**

# Dünyanın sonu panikası yenidən başlandı - zənginlər "Qiyamət günü"nə hazırlaşır

## Bir-birindən fərqli və məsrəfli sığınma evləri tikilib; varlılar can bazarında qalib gəlmək istəyirlər...

Buna görə də texnologiya milyonerləri dünyanın fərqli bölgələrində hazırladıqları sığınma evlərinə özlərini qorumaq üçün odlu olan və olmayan silahlar yığırlar. Multi-milyonerlərin ilk növbədə seçdikləri yer isə Yeni Zelandiyadır. Bu ölkənin Cənubi Koreyadan, terror təşkilatı İŞİD-dən, Avropa və ABŞ-dakı sosial gərginlikdən uzaqlığı ölkəni sığınmaq üçün ideal yer halına gətirir. Milyarderlər bu ölkədə hazırladıqları sığınma yerlərini kapital kimi görürlər.

**Varlı-kasıb müharibəsi?**

Amma bununla belə, dünyanın sonu ilə bağlı şayiələr çox da geniş yayılmayıb. Bu səbəbdən də varlıların nədən ehtiyatlandıqları da maraq mövzusudur. Amma ehtimal edilir ki, varlılar daxili müharibədən, nüvə silahlarından, sosial çöküşdən narahatlıq keçirir. Silikon Vadisindəki insanların ən çox qorxduqları şey isə yeni texnologiya ilə birlikdə dünya iqtisadiyyatının da alt-üst olması, bunun ardınca varlılarla yoxsullar arasında böyük bir mübarizənin başlanacağıdır. Keçmiş Facebook rəhbəri olan Antonio Garcia Martinez Sakit okeandakı bir adada torpaq satın alaraq, onun üzərində generatorlar və günəş batareyaları ilə təchiz olunmuş bir ev inşa edib. Bundan başqa, o, həmin evdə çoxlu sayda silah satın alıb. Oracle-ın qurucusu Lerri Ellison da Havayda bir ada satın alıb. Yahoo-nun rəhbərliyindəki eks komandanın üzvü Marvin Liao oxatma dərsləri alır və odlu olmayan silahlardan ibarət kiçik bir cəbbəxana qurub.

Amma sığınacaq variantları bununla yekunlaşmır. Amerika ordusunun silah-sursat saxlamaq üçün istifadə etdiyi sığınacaqlar 1967-ci ildə boşaldılıb. Uzun müddət boş qalan sığınacaqlar 2016-cı ildə "Vivos Group" tərəfindən satın alınıb.Mümkün bir qiyamət günündən qurtulmaq üçün ərazidə yaşayş məntəqəsi yaradılması nəzərdə tutulub.

575 sığınacağın olduğu Cənubi Dakodadakı bu təsisatda əvvəlcədən qiyamət günü sağ qalmaq üçün yer sifariş edə bilərsiniz.

1942-ci ildə Amerika ordusunun silah-sursat anbarları kimi istifadə edilən sığınacaq "Vivos xPoint" adlanır.

Dünyanın ən böyük sağ qalma təsisatı da adlandırılan sığınacaq 220 tonluq partlayışa hazırdır. Polad və betondan tikilən sığınacaqların hər birində 10 nəfərin yaşaması üçün şərait var.

**Bu binanın sakinləri tərəvəz və balıq yetişdirməklə dolanacaqlar**

ABŞ-ın Kanzas şəhərində soyuq müharibə dönəmindən qalmış bir ərazidə (adı açıqlanmır) qiyamət günündən qorunmaq üçün özəl bir bina hazırlanır. Yerin 53 metr dərinliyində olan bina 14 mərtəbəli olacaq. İçində kino zalı, hovuzu və kitabxanası da olan binanın 7 mərtəbəsi ev kimi düzənlənəcək. Yerin altına doğru enən lift isə barmaq izləri ilə işləyəcək. Bəs burada yaşayanların qidalanması məsələsi?

Məlum olub ki, 70 nəfərin tərəvəz və balıq yetişdirərək həyatda qala biləcəyi binanın bir mərtəbəsi 2 milyon dollardan satışa çıxarılıb. Proyekti hazırlayan Larry Hall deyib ki, müharibə, günəşdəki partlamalar, iqtisadi çöküş, qida sıxıntısı və terror hücumlarından qorxanlar binaya maraq göstərirlər.

**80 min dollar ver, sığın bu evə**

Yevgeni Ubiyko adlı rusiyalı mühəndis isə sel, zəlzələ, yanğın və terror hücumlarına davamlı sığınacaq hazırlayıb. Daha əvvəl "Qiyamət sığınacağı» adı verilən icadının maketini nümayiş etdirən Yevgeni Ubiyko bu dəfə işini yekunlaşdırıb və sığınacağın əslini ictimaiyyətə təqdim edib. Mühəndis burada 4 nəfərin rahat yerləşə biləcəyini deyib. Onun sözlərinə görə, insanlar 40 gün ərzində burada terror hücumları və təbii fəlakətlərdən qoruna bilər. Mühəndis sığınacağın güllə keçirməz və yanğına davamlı olduğunu deyib. Sığınacağı 80 min dollara satmağı nəzərdə tutan Yevgeni Ubiyko buna oxşar modelin ABŞ-da da hazırladığını, lakin öz icadının müqayisədə daha təkmilləşdirilmiş olduğunu bildirib. Mühəndis 2012 filminə baxdıqdan sonra təsirləndiyini və belə bir sığınacaq yaratmaq qərarına gəldiyini deyib. "İllərdir 2012 filmindəki kimi fəlakətlərin olacağından bəhs edən filmlər çəkilir. Mənim icadım isə bu qorxulu fəlakətlərdən necə qorunmağa cavabdır», - deyə rusiyalı mühəndis bildirib.



**Ev demək olmaz, bunun adı sığınma gəmisidir**

Hollandiyanın Schagen şəhərindən gələn, Hollandiyalı dizayner Johan Huibers, İncildə söylənilən Nuhun gəmisinin 1/5 böyüklüyündəki, müasir dövrün Nuhun Gəmisinin eynisini düzəltmək üçün olduqca çox vaxt və təxminən olaraq 1.2 milyon dollar xərcləyib. Johan Huibers bu layihəyə, 1992-ci ildə və ölkəsinin qlobal istiləşməyə görə, tamamilə sular altında qala bilmə ehtimalı olduğu fikrinə əsaslanaraq başlayıb. Bu fikir, hər nə qədər zaman keçdikcə məşhurluğunu itirsə də, Johan Huibers bu fikri mənimsəməyə və bu səbəbdən, işlərini davam etdirməyə davam edib. Buna görə 70 metr uzunluğunda, 9.5 metr enində və 13 metr yüksəkliyindəki gəmisi üzərində işə 2005-ci ildə başladı. Bu işlərini, banklardan aldığı kreditlər ilə tamamladı və bu anda gəmisi, Hollandiyanın bütün daxili quru sularında olan körpülərin, altından keçə biləcək şəkildə yüksəkliyi nizamlandı və suya enməyə hazır bir şəkildə gözləyir.

**Ev varsa, anbar da olmalıdır**

Evlərlə yanaşı, qiyamət anbarı da var. Daha öncə də yazdığımız kimi, bu anbara dünyanın bütün zənginləri qatılıb. Başda Bill Qeyts olmaqla zənginlər uzun illərdir ki, dağın altında anbar yaradır. Anbarda dünyadakı bütün bitki toxumlarından var. "Qlobal Toxum Anbarı" layihəsi 1983-cü ildən bəri Norveçdə həyata keçirilir. Anbar əgər bir gün qiyamət qoparsa, "Nuhun gəmisi" rolunu oynamalıdır.

Norveçin şimalındakı Şpitsbergen adasında, buzlaqların arasında nəhəng bir dağın 130 metr dərinliyində tikilən və 9 milyon dollara başa gələn "Svalbard Qlobal Toxum Anbarı" 2008-ci ilin mart ayından bəri fəaliyyət göstərir. Divarları nüvə bombalarına qarşı belə dözümlü olan anbarda dünyanın dörd bir tərəfindən gətirilən təxminən 4 milyon ədəd müxtəlif toxum saxlanır. Anbar dünyada nüvə müharibəsi, qlobal istiləşmə kimi hər hansı bir fəlakətdən sonra Yerdə həyatın davam etməsi üçün yaradılıb.

Şimal Qütbündən 1000 kilometr aralıda, BMT Qida və Əkinçilik Təşkilatı ilə Beynəlxalq Biomüxtəliflik araşdırma qrupunun yaratdığı Qlobal Məhsul Müxtəlifliyi Təşkilatı və Norveç hökuməti tərəfindən yaradılan anbarda havanın hərarəti bəzi toxumların 1000 il yaşaya bildiyi mənfi 18 dərəcəyə qədər aşağı salınıb.

Layihənin arxasındakı beyin və Qlobal Məhsul Müxtəlifliyi Mərkəzinin (GDTC) rəhbəri Cary Fowler anbarın əhəmiyyəti barədə belə deyib: "Qlobal toxum anbarı, əkinçilik müxtəlifliyimizin yox olmasına mane olmaq üçün sonuncu müdafiə tədbirlərindən biridir. Həqiqət budur ki, insanlar dinozavrların nəslinin tükəndiyindən xəbərdardır, ancaq çox təəssüf ki, heç kim əkinçilikdə də məhsul müxtəlifliyinin kütləvi tükənmə ilə qarşı-qarşıya qaldığının fərqində deyil. Yığılan məhsul müxtəlifliyi, qida ehtiyacımızın qarşılanması baxımından həyati əhəmiyyət daşıyır. Bizim bu anbara ehtiyacımız var. Çünki əkinçiliyin, iqlim dəyişməsinə, zərərli böcəklərə, xəstəliklərə, quraqlığa qarşı adaptasiyanı təmin etmək və fermerlərə kömək əlimizi uzatmaq məcburiyyətindəyik".

Qlobal Məhsul Müxtəlifliyi Təşkilatı anbarı illik 125-150 min dollar arasında maliyyə yardımı ilə təmin edir. ABŞ, İngiltərə, Norveç, Almaniya, İsveçrə və Kanadanın dövlət fondlarından da buraya pul köçürülür.

**Almanlar qiyamət iqamətgahı tikiblər**

2015-ci ildə isə Almaniyanın Rothenşteyn bölgəsində bir kənddə Qiyamət iqamətgahı tikilib. Tikilinin inşasına 1 milyard dollar vəsait sərf edilib. Yalnız milyonçular üçün tikilən sığınacaqda Qiyamət günü gəldiyində bir il boyunca heç çölə çıxmadan yaşamağın mümkünlüyünü ehtimal edirlər. Hovuzlar, teatrlar, fitnes salonları, restoranlar və hətta helikopter xidmətinin təklif edildiyi bildirilir. Varlıların bu xidmətlərdən nə qədər məbləğ qarşılığında faydalanacağı isə hələ açıqlanmayıb

Sonda... Gördüyünüz kimi, ortada dünyanın sonu, qiyamət günü ilə bağlı hər hansı anons, həyəcanlı xəbər olmasa da, varlılar indidən işlərini ehtiyatlı tutublar. Onların anbarı da var, iqamətgahı da, hətta dünyanın sonu çatsa, yeyib-içmə bazası da. Bizim kimi dünyalılar həyatını məvacibdən-məvacibə planlaşdırdığı halda, pulu çox olanlar baş verə biləcək qiyamət gününə indidən hazırlaşırlar. Varlının pulu kasıbın təkcə çənəsini yormur, həm də onu həyatda qalma mübarizəsində məğlub edir.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 26 (6640) 6 fevral 2017



# Ana "kişi" oldu, oğlu "qız"

**15 yaşlı amerikalı Kori Meyson oğlan kimi dünyaya gəlsə də, 10 yaşına çatanda oğlan kimi yaşamağın ona maraqlı gəlmədiyini deyib.**

Onun bu problemini həll etmək üçün sözügedən sahə üzrə ixtisaslaşmış həkimlərə, klinikalara aparıblar. Bunun həm psixoloji, həm fizioloji proses olduğu qənaətinə varan həkimlər valideynlərin də razılığı ilə uşağın cinsiyyətini dəyişdiriblər. Amma hadisədən 4 il sonra uşağın anası da qərar verib ki, həyatı boyu başqa bədəndə yaşayıb. Bununla da onlar dünyadakı birinci transgender ailə olublar. 2015-ci ildə ana Kori ərinə etiraf edib ki, onun dəhşətli bir sirri var. Bu sirr də ondan ibarətdir ki, o, "kişi" olmaq istəyir. Əri onu atıb gedib, amma yardım edəcəyinə söz verib. Bir müddət sonra uşaqları da bu durumdan xəbərdar olublar.

Hazırda ana Kori özünə kişi adı Eriki götürüb və ilk növbədə sinə kiçiltməsi əməliyyatına girmək istəyir: "Mənim möhtəşəm ailəm var. Onlar məni anlayırlar. Sanki heç nə baş verməyib, həyatımız öz yolunda davam edir. Və məhz indi ilk dəfədir ki, özümü həyatda doğru hiss edirəm".

# Süni insan dərisi yaradıldı

**Rusiyanın Ulyanov dövlət pedaqoji universitetinin elmi-tədqiqat mərkəzinin əməkdaşları analoji insan dərisinin strukturunu yaradıblar. Bu, adət edilmiş "süni dəri" deyil. Analoq dəri kosmetologiyada və transplatasiyada tətbiq edilə bilər. Ulyanov dövlət pedaqoji universitetinin elmi-tədqiqat mərkəzinin rəhbəri Yelena Antonov bu barədə açıqlama verib: "Biz dəri örtüyünün zədələrinin müalicəsi üçün tətbiq edilə bilən molekulyar-hüceyrə məhsullarının üç növünü hazırladıq. Bu, məsələn, yanıqlardan sonra, mexaniki travmalar, trofik yaralar, həmçinin kosmetologiyada istifadə olunmaq üçündür".**



Ulyanov mütəxəssislərinin ixtirası artıq Ulyanovskun müxtəlif klinikalarında bir sıra laboratoriya sınaqları müvəffəqiyyətlə keçdi. Tədqiqatçılar qeyd etdiyi kimi, süni dərinin analoqu sadədir və istehsalda kifayət qədər ucuzdur, buna görə o tibbi müəssisələrin geniş mühitinə əlçatan olacaq. Hal-hazırda ixtiranın müəllifləri müxtəlif tibbi təşkilatlarla və bərpa mərkəzləriylə öz hazırlamasına və sonrakı əməkdaşlığa patenti almağı planlaşdırırlar.

# İnsan depressiyada olanda sosial şəbəkədə şəkil paylaşırmış

**Psixoloqlar müəyyənləşdiriblər ki, insan depressiv vəziyyətdə olan zaman tez-tez şəkillərini paylaşır. Ümumiyyətlə, sosial şəbəkələr 2-3 formada istifadə olunur. Bəzi insanlar bunu iş, bəziləri isə şəxsi məqsədləri üçün istifadə edir. Şəxsi mənafeyi üçün istifadə edənlər tez-tez statuslar yazır, şəkillər paylaşır. Bu tip insanların paylaşdığı şəkillərin bir-biri ilə nə dərəcədə uzlaşdığına fikir vermək lazımdır. Normalda bir insan gün ərzində 4 fərqli əhvali-ruhiyyədə şəkil paylaşırsa, bu, onun həmin gün keçirdiyi dəyişkən psixoloji durumundan xəbər verir. İkinci tərəfdən, paylaşılan bu şəkillər diqqət çəkmək məqsədi daşıyır.**

Sosial şəbəkələrdə diqqət çəkməyin əsas vasitələrindən biri də qəmgin şəkillər paylaşmaqdır. Belə şəkil paylaşan zaman insanlar nə baş verdiyini öyrənmək üçün həmin insana yazıb hal-əhvalını soruşur. Yaddan çıxan insan bir anda dostların diqqət mərkəzinə çevrilir. Bunu özünütəsdiq forması kimi də qiymətləndirmək olar. Bu cür hallar həmin insanlara psixoloji güc verir. Ümiləşdirsək, sosial şəbəkədə tez-tez şəkil paylaşmaq iki halda baş verir:

1 - Depressiv vəziyyətdə olan zaman

2 -Diqqət çəkməklə daxili rahatlıq tapmaq istəyən zaman.






# Xəyanətə uğradı, ayaqqabılarını yandırdı

**Çarlotte Arnold adlı qadın sevgilisi Ciaran Loughlini başqa bir qadınla yaxalayıb. Çarlotte bundan sonra Ciaranın 250 manatlıq ayaqqabılarını benzin tökərək yandırıb.**

İngiltərənin Merseysayd bölgəsində yaşayan gənc qadın sevgilisinin ayaqqabısını yandırmasını videoya çəkib və özünün "Twitter " hesabında paylaşıb. Çarlotte videonun üzərində bunları qeyd edib:

"Məni aldatmamışdan öncə 2 dəfə düşünün! Bir az qaz, bir çaxmaq... Məni aldatma, yoxsa ayaqqabılarını yandıraram".




**QOÇ** - Təxminən saat 12-yə qədər əsas vaxtınızı istirahətə həsr edin. Çünki həmin ərəfədə uğurlardan uzaq olacaqsınız. Sonrakı saatlarda isə qarşılıqlı münasibətlərdə irəliləyişlər gözlənilir.

**BUĞA** - Ümumən gərgin gün olsa da, baş çəkəcəyiniz ünvanlardan asılı olaraq sabitliyinizi təmin edə bilərsiniz. Başqalarının şəxsi işinə müdaxilə etməyin. Dilinizdən dualarınızı əsirgəməyin.

**ƏKİZLƏR** - Günün birinci yarısında həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Əgər haqlı olduğunuza əminsinizsə, mübarizədən yayınmayın. Dost məsləhətinə böyük ehtiyacınız var.

**XƏRÇƏNG** - Hər mənada uğurlu gündür. Qarşınıza qoyduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Odur ki, bəxtinizdən şikayətlənməyi bir kənara atın. Dostlara arxa çevirməyin.

**ŞİR** - Əgər özünüz özünüzə inanmırsınızsa, bunu başqalarından gözləməyə dəyməz. Bir az nikbin olun. Kosmik bioritm bir qədər əleyhinizə işlədiyi üçün görəcəyiniz işləri dönə-dönə götür-qoy edin.

**QIZ** - Böyük dönüş astanasındasınız. Belə məqamlarda adətən ətrafa sədaqətli dostlar toplamaq müsbət nəticə verir. Siz də bu təcrübədən yararlanıb qarşıdakı həftə üçün buna hazır olmalısınız.

**TƏRƏZİ** - Nə qədər mane olmaq istəsələr də, özünüzü təmkinli aparmaqla rəqiblərinizi zərərsizləşdirməlisiniz. Axşama yaxın sevdiyiniz adamla gəzintiyə çıxmağa çalışın. Bu gün borc almayın.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı müvəffəqiyyətə yetişəcəyinizi təsvir edən Göy qübbəsi əzmkarlığınızı artırmağı tələb edir. Bu gün qarşınıza çıxan şəxslərin əksəriyyəti mövqeyinizi dəstəkləyəcək, aktiv olun.

**OXATAN** - Risk və mübahisələrdən yayınsanız, ixtiyarınızda olan bu təqvimdən xeyli razı qalacaqsınız. Ulduzların düzümü maraqlı adamlarla görüşəcəyinizi, həmçinin qonaqlıqlarda iştirakınızı proqnozlaşdırır.

**OĞLAQ** - Səhhətlə bağlı bəzi problemlərlə rastlaşsanız da, bunun ciddi fəsadları olmayacaq. Bununla yanaşı, özünüzü nəqliyyatdan da qorumalısınız. Saat 15-18 arası sevindirici hadisələr olacaq.

**SUTÖKƏN** - Kifayət qədər düşərli gündür. Hansısa xoşagəlməzliyin baş verəcəyinə inanmayın. Əksinə, hər nə olsa, ondan sizə yalnız xeyir gələcək. Perspektivli sövdələşmələriniz də gözlənilir.

**BALIQLAR** - Ulduzların düzümü daha çox səyyar fəaliyyətdə uğurlara yaxın olacağınızı bildirir. Oturaq işlərə az aludə olun. Elə addım atın ki, sizi dolaşdıranların əli boşda qalsın. Səhhətinizi də qoruyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 10 il öncə itkin düşən iti sahibinə qaytardılar



**Alabama sakini Treysi Dava baytarlıq klinikasından zəng edərək 10 il öncə itkin düşən itini tapdıqlarını deyiblər. Lenta.ru saytının xəbərinə görə, bütün bu illər ərzində qadın əmin idi ki, Çarli ləqəbli iti ölüb. Klinikanın sahibləri şəhərdəki elanlardan və itin ümumi əlamətlərindən sahibinin kimliyini müəyyənləşdiriblər. Heç kim bilmir ki, bu 10 il ərzində yaşadığı evdən 400 kilometr aralıda tapılan it necə və kimin yanında həyat keçirib. O, 2006-cı ildə, cəmi 1 yaşı olanda itkin düşüb. Bu 10 il ərzində itin səhhətində ciddi problemlər yaranıb. Müalicə olunandan sonra onu sahibinə verəcəklər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100